# MƏMMƏDOVA İLKAN





**"İnsanlarla mülayim davranmaq dinin yarısı, gözəl sual verməк elmin yarısı və yaxşı idarəetmə yaşayışın yarısıdır"**

**(Hz Ömər)**

Hikmət dolu bu fikirdə ən böyük həqiqət elmin vacibliyi, onun insan həyatındakı mühüm əhəmiyyətinin əks olunmuş təsviridir. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indiki gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olduğu üçün elm və təhsil məsələsinin keyfiyyətinə öncədən ciddi diqqət yetirilməli və bunun vacibliyi dərk edilməlidir. Birmənalı olaraq bu günün gəncliyi sabahın gələcəyidir. Həmin gələcəklə də ölkənin durumu xarakterizə olunur və qiymətləndirilir. Sabahın Azərbaycanı da bu günün durum və vəziyyətindən çox asılıdır. Əsas ümid təhsilli, vicdanlı  və savadlı gənc kadrlaradır.

Bəli, indiki gənclik  Azərbaycanın taleyi deməkdir, desək yanılmarıq. Bu gənclik isə o diqqət və qayğıdan məhrum edilməməli və daim dövlətin və idarəçilik sisteminin qayğısını görməlidir. Elə ənənə halı almış jurnalımızın əsas qayəsi də savadlı və bacarıqlı məktəbliləri öz sayında işıqlandırmaqla bu missiyaya  az da olsa xidmət etməkdir. Və bu yazı da həmin şagirdlərdən biri haqqındadır. İlkan Məmmədova haqqında.

Məmmədova İlkan İlkin qızı 21 may 2010-cu ildə Astara şəhərində dünyaya gəlib. 3-cü sinifdə oxuyan İlkan məktəbə 2016-cı ildə  yollanıb. Sabunçu rayon  Zabrat qəsəbəsində yerləşən 71 saylı tam orta məktəbdə təhsil alan İlkan sinif rəhbəri Kəmalə müəllimini çox sevir. Sevimli müəlliminin tədris etdiyi bütün fənləri həvəslə oxuyur. Çalışır ki, yaşıdlarından geri qalmasın. Müəllim və valideynlərinin etimadını doğrultsun. Öz bacarıq və imkanları ilə seçilsin.

Gündəlik dərslərinə hazırlıqlı olan İlkan gələcəklə bağlı sənət seçimini də artıq müəyyənləşdirib. Böyüyəndə peşəkar idmançı və ədalətli hüquq əməkdaşı olmaq istəyir. Dərslərdən əlavə məşğuliyyət kimi rəqs etməyi çox sevir. Şərq musiqisinin həvəskarı olan İlkan musiqi təhsili almasa da gözəl hind rəqslərini ifa etməyi bacarır. Asudə vaxtlarında dostları ilə rəqs edir, anasına ev işlərində köməklik edir. Çalışır ki, dərslərinə daha çox vaxt ayırsın. Axı o orta məktəbi bitirib ali təhsil almaq  arzusundadır. Gələcəkdə savadlı bir şəxsiyyətə çevrilməsi üçün bu gündən dərs öhdəliklərini yerinə yetirməli, baza təhsil bilgilərinə yiyələnməli və zəngin mütaliə ilə dünyagörüşünü artırmalıdır. Çünki gələcəkdə seçdiyin peşədə özünü görmək və təsdiq etmək üçün oxumaq və öyrənmək hər zaman vacibdir. Təkcə müəllimləri deyil, onu dünyaya gətirən valideynlərinin də  onunla bağlı arzular, xəyallar qurublar. Onlar da övladının yüksək təhsilli ixtisaslı bir kadr kimi yetişməsini arzulayır və bu yolda ona dəstəklərini əsirgəmirlər. İlkan da deyir ki,  onların arzusunu həyata  keçirməklə  yanaşı,  həmçinin  vətəninə,  elinə fayda verə  biləcək bir şəxsiyyət olmaq onun ən böyük arzusudur. Bunun üçün isə yalnız və yalnız oxumalı, nicatı indidən kitab və öyrənməkdə görməlidir.

Ailəsi  4 nəfərdən  ibarətdir.

Atası Məmmədov İlkin Nəsrulla oğlu, 6 avqust 1983-cü ildə Lənkəran şəhərində anadan olub.

Anası Məmmədova Səbinə  Ramazan qızı, 27 sentyabr  1982-ci  ildə  Astara  şəhərində  anadan olub, evdar xanımdır. Qardaşı Məmmədov Nihad  5 may 2007-ci ildə Astara şəhərində anadan olub, hazırda 6-cı sinifdə oxuyur.

Redaksiyamız adından biz də İlkana  can sağlığı, dərslərində və həyatda bol uğurlar diləyirik. Elmi, biliyi ilə yolu daim işıqlansın, seçəcəyi  və xidmət edəcəyi  sənətdə həmişə birincilərdən olsun!



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları  qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**

Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# NƏSİRLİ AYAN







**"Nadanlar elmə həqarətlə baxar, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər".**

**(Frensis Bekon)**

Bəli həqiqətən də belədir. Elm insanın həyatında ən vacib faktorlardandır ki, bununla istənilən məqama, rütbəyə çatmaq olar. Əsas odur ki, bu yolda məqsədin olsun. Elmlə ucalan insana heç kim güc gələ bilməz. Elmə yiyələnmək hər kəsin öz əlindədir. Mən də böyüyəndə elmli, savadlı olmaq istəyirəm deyən Nəsirli Ayan da belə düşünür. Bu yolun davamçılarından olmaq istəyən Ayan Nəsirli haqqında yazını oxucuların ixtiyarına buraxırıq.

Nəsirli Ayan İlham qızı 20 mart 2010-cı ildə Sumqayıt şəhərində anadan olub. Ayan 2016-cı ildə Qubadlı rayon Hafis Quliyev adına Texniki Fənlər Təmayüllü Çaytumas məktəb-liseyinə daxil olub, artıq həmin məktəbin 3-cü sinif şagirdidir. Ayan çox yaxşı oxuyur. Dərs əlaçısı olan bu qız oxuduğu məktəbdə çox fəaldır. Dərslərə daim hazırlıqlı gəlir, məktəbdəki tapşırıqları doğru-düzgün yerinə yetirir. Oxuduğu 3 il ərizində hər bir dərsdə qabaqcıl, nümunəvi şagird missiyasını yerinə yetirib. Bununla yanaşı məktəbdə keçirilən bilik yarışmalarında qabaqcıl olub. 1-ci sinifi bitirdiyi il, yəni 2016-2017-ci tədris ilini müvəffəqiyyətlə başa vurduğu üçün Fəxri Fərmanla təltif olunub. 2017-2018-ci tədris ilinin sonunda da nümunəvi və əlaçı olduğu üçün yenə də Fəxri Fərmanla dəyərləndirilib.

Ayan müəllimlərinin onun üçün çəkdiyi əməyini qiymətləndirir və onlara jurnalımız vasitəsi ilə təşəkkür edir. Bildirdi ki, Həqiqət müəlliminin dediyi dərslər o qədər maraqlı keçir ki, özü də gələcəkdə ondan ruhlanıb müəllim peşəsinə yiyələnmək istəyir. Ayan ingilis dili müəllimi olan Ramidə müəllimini də çox sevir. Amma bütün fənlər Ayan üçün maraqlıdır. O hesab edir ki, gələcəkdə seçilən müəllim olmaq üçün bütün fənləri əla oxumalıdır.

Boş saatlarında dərs oxuyub rəsmlər çəkən Ayan özünün digər istedadlı tərəflərini də püxtələşdirir.

Ailəsi 5 nəfərdir. Atası Nəsirov İlham Dilsuz oğlu, 7 noyabr 1981-ci ildə anadan olub. Anası Bağırova Aygün Əlisahib qızı, 28 iyun 1984-cü ildə anadan olub, kosmetik firmaların birində satış üzrə menecer işləyir. Ayanın özündən yaşca böyük bacısı Günay 9-cu, özündən yaşca balaca olan qardaşı Əliyar isə 2-ci sinifdə oxuyur.

Gələcəkdə pedaqoq olmaq istəyən Ayana uğurlar diləyirik və gələcəyin ən peşəkar müəllimi olmasını arzulayırıq!

# NURİYEV RƏVAN



**"Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir"**
**(Aristotel)**

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Çünki yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyi hələ uzaq keçmişdən müdrik və savadlı alimlər, filosoflar tərəfindən dərk edilib, lazımı qiymət verilib. Onların özləri elmi seçərək müxtəlif sahələrdə nəaliyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər. O zamandan indiyə kimi nəsildən- nəsilə ötürülən elm, bilik müasir dövrümüzdə də inkişaf etməkdə, daim yenilənməkdədir. Yaşadığımız 21-ci əsr isə elm və texnologiya əsri olduğundan yenilik və kəşflərin sayı-hesabı yoxdur. Bu isə hər şeydən dəyərli və qiymətli olan işləyən insan beyinləri sayəsində reallaşır.

Ölkəmizdə də təhsilə, elmə maraq ötən illərlə müqayisədə artıb. Və artıq yüksək təhsil sistemi ilə dünyada tanınan Avropa, Amerika, uzaq şərq ölkələrinin təhsil sistemi ilə tanış olan şagirdlərimiz orta məktəbi bitirdikdən sonra ali təhsilini ölkəsi ilə yanaşı, həmin regionun ölkələrində də davam etdirir və fəaliyyət göstərir. Əslində ən böyük istəyimiz də təhsilimizin səviyyəsini həmin ölkələrin təhsil sistemi ilə uyğunlaşdırmaq və qarşılıqlı olaraq yararlanmaqdır. Amma Cənubi Qafqaz regionunda savadlı, bacarıqlı bir xalq olaraq buna nail olmaq potensialının sahibiyik. Təbii ki, təsadüfi deyil hər il ölkəmizdəki məktəblərdə təhsil alan ən savadlı, bacarıqlı şagirdlərin sayı ildən-ilə artır. Çünki təhsilin vacibliyi və dünya arenasına çıxışın nisbətən rahatlığı onları keyfiyyətli təhsil həyatına maraqlı edir. Biz də jurnalımız vasitəsi ilə belə şagirdlərimizi ölkəmizdə tanıtmaq məqsədi ilə ümumtəhsil tədris ocaqlarına üz tutduq. Hər sayında öz bacarıq və qabiliyyəti, savad və təhsili ilə qabaqcıl olanları seçərək zaman-zaman işıqlandırırıq. Çünki onların belə dəstək və diqqətə ehtiyacı var. Jurnalımızın bu səhifəsində isə sizi Bakı şəhəri 71 saylı tam orta məktəbin uğurlu şagirdlərindən biri olan Rəvan Nuriyev ilə tanış edək.

Nuriyev Rəvan Sahib oğlu 20 avqust 2010-cu ildə Bakı şəhərində dünyaya göz açıb. 2016-cı ildə məktəb həyatına başlayan Rəvan hazırda Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 71 saylı tam orta məktəbin 3-cü sinfində təhsil alır. Riyaziyyat fənnini sevən Rəvan müəllimlərinin ən sevimli, nümunəvi şagirdidir. Ailənin ilk övladı olduğu üçün valideynlərinin gözünün ilk nuru, ilk bəhrəsi sayılır. Rəvan nəinki valideynlərinin, o cümlədən, müəllimlərinin, sinif yoldaşlarının da yanında xüsusi hörmət qazanıb. Baxmayaraq ki, Rəvan hələ ibtidai sinif şagirdidir, ancaq O, çox məsuliyyətli və tərbiyəli olması ilə buna daha erkən yaşında nail olub. Elə yazını hazırlamaq məqsədilə ailəsi ilə əlaqə saxlayarkən anası Aydan xanımla oğlu barədə həmsöhbət olduq. O oğlu haqqında bir valideyn kimi razı qaldığını bildirdi. Onunla qürur duyduğunu etiraf etdi. Ağıllı, tərbiyəli və əlaçı olması ilə hamının hörmətini qazandığını da əlavə etdi. Rəvan isə bunu öz zəhməti hesabına qazanıb. Müəlliminin evə verdiyi tapşırıqlarını vaxtlı- vaxtında yerinə yetirir, dərsə olan davamiyyətini pozmur. O gün olmasın ki, Rəvan evə əla qiymətlərlə qayıtmasın. Axı o gələcəkdə bütün elmlərin şahı hesab olunan riyaziyyatçı olmaq istəyir. Müsahibə zamanı Rəvan ona dərs deyən müəllimlərinin zəhmətini də qiymətləndirməyi unutmadı. Bildirdi ki, onun belə əlaçı olmasında Rəna, Yetər və Rahibə müəllimlərinin zəhməti böyükdür.

Asudə vaxtlarını səmərəli keçirən Rəvan cüdo növü ilə həvəskar məşğul olur. Bu idman növü yay tətilinin ən sevimli məşğuliyyətidir. Gələcəyini indidən planlaşdıran Rəvan orta məktəbi yüksək qiymətlərlə bitirdikdən sonra ali təhsilini almaq və özünü elm-təhsil yoluna bağlamaq istəyir ki, bu həm valideynlərinin, həm də müəllimlərinin onunla bağlı ən böyük arzusudur. O da bu etimadı doğrultmaq və layiqli bir övlad, yetirmə olmaq istəyində israrlıdır.

Ailədə 4 nəfərdirlər. Atası Nuriyev Sahib Vasif oğlu özəl sektorda çalışır, iş adamıdır. Anası Nuriyeva Aydan Abdulla qızı müəllimdir. Bacısı Nuray Sahib qızı da ibtidai sinif şagirdidir.

Sonda ağıllı, tərbiyəli, əlaçı Rəvan balaya can sağlığı və arzulayırıq. Ümidvarıq ki, o gələcəyin ən yaxşı riyaziyyatçısı , ən yaxşı övladı, ən layiqli vətəndaşlarından olacaq.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Qabaqcıl təhsil işçisi Məzahir Əliyev





Zirvədə yaşamağı insan övladı daim arzulayıb. Yağı tapdağında qalan, əzilənə tapdaq olan, sərvətləri talanan Ağdama qovuşmaq arzusu ilə "yaşadığımız", yurd-yuvasızlıq ağrılarına birtəhər dözdüyümüz ağrılı günlərimizdə tanrı bizə dəfələrlə çəkiləsi mümkün olmayan sitəmlər edib.

Bəşəriyyətin bərqərar olduğu dövrlərdən bu günə qədər ictimai həyatda silinməz izlər qoyub və sonrakı nəsillər üçün ömrü, fəaliyyəti örnək sayılan şəxsiyyətlər az olmayıb. Belə insanlara sözü bütöv, sözünün ağası, elin atası da deyirlər.

Elə-belə, söz gəlişi deməyiblər ki, güclü ağıllar, qüdrətli düşüncələr, dərin zəkalılar insanları birliyə, vəhdətə, bütövlüyə, xalqa, millətə xidmətə səsləyir. Bütün bu kimi fəlsəfi deyimlərin toplusu bütöv bir şəxsiyyətin obrazını yaradır. Haqqında söz açmaq istədiyim insanın obrazında məhz bunları görmək olar.

Öz el-obasına bağlı, xalqın məhəbbətini qazanmış, doğulduğu torpağa şərəf gətirmiş insanlar, çox haqlı olaraq yaşlarından asılı olmayaraq el ağsaqqalı adlanırlar.

Ağdamın zəhmi, dəyanəti, qüruru ilə seçilən, ürəyi isə zərif çiçək ləçəyi kimi olan ziyalı, el ağsaqqalı, ixtisasca riyaziyyatçı olan Məzahir Vəli oğlu Əliyevdən danışmaq istərdim.

Məzahir müəllim 2 noyabr 1946-cı ildə Ağdam rayonunun Ətyeməzli kəndində anadan olmuş, 1963-64-cü dərs ilində Novruzlu kənd orta məktəbini bitirmişdir. 1965-69-cu illərdə KDPİ-nin riyaziyyat ixtisasında oxumuş və elə həmin tədris ilində təyinatla Ağdam rayon Təhsil şöbəsinə göndərilmişdir. Həmin vaxtdan 1992-ci il tarixinə kimi Ağdam şəhər 3 saylı, 8 saylı və Tağıbəyli kənd orta 1 nömrəli əyani-qiyabi məktəbində müəllim, təşkilatçı direktor müavini vəzifəsində çalışmışdır.

1992-ci ildən Ağdam şəhər 9 saylı natamam orta məktəbində direktor, sonradan isə bu günə qədər Bakı şəhərində yerləşən 76 saylı tam orta məktəbində direktor işləyir.

Qabaqcıl ziyalı, pedoqoji təcrübəsi ilə respublikada tanınan, müəllim və şagirdlərin sevimlisi olan, dövlət və nazirlik tərəfindən verilən əmr və sərəncamları vaxtında yerinə yetirən, rayonun tanınmış ziyalısı Məzahir müəllimin əməyi daim yüksək qiymətləndirilmişdir. Belə ki, o, 1994-cü ildə müəllimlərin attestasiyası vaxtı Təhsil Nazirliyinin 15.12.1994-cü il 19 saylı protokolu ilə "Ali Kateqoriyalı müəllim" adına layıq görülmüş, 2011-ci ilin may ayında ARİVİ-lərinin Həmkarlar İttifaqı sədri O.Salamzadənin imzası ilə "Qızıl qələm mükafatı" və "Xalqın nüfuzlu ziyalısı" diplomları ilə təltif olunmuş, 1993-cü ildən YAP-ın Ağdam təşkilatının üzvüdür.

Atası- Əliyev Vəli Babaş oğlu 1910-cu ildə anadan olmuş, pedoqoji təhsil almış, ömrü boyu müəllim, təşkilatçı 21 il direktor vəzifəsində çalışmış və 1990-cı ildə dünyasını dəyişmişdir.

Anası- Əliyeva Mələk İsmayıl qızı 1914-cü ildə anadan olmuş, evdar qadın olub, dünyasını dəyişmişdir.

Ürəyi, qəlbi ilə gənc nəslin təlim-tərbiyəsi ilə döyünən, ömrünü-gününü onların yolunda qoyan, daima yaxşı əməlləri ilə xalqına, elinə kömək duran, övladları və nəvələri ilə fəxr edən qocaman maarif fədaisi, el ağsaqqalı, yaxşı müəllim və rəhbər, riyaziyyat elminin sirlərinə yiyələnən Məzahir müəllimə öz adımdan və redaksiya heyəti adından can sağlığı, uzun mənalı ömür, ailə xoşbəxtliyi arzu edirəm.

***"Təhsil Yenilikləri" qəzet və jurnalının təsisçisi, metodist, riyaziyyat müəllimi İsa Əkbərov.***

# NURİYEVA NURAY





**Əvvəllər elmin sərhədləri olan yer indi onun mərkəzidir.**

***(Qeorq Kristof Lixtenberq)***

Qədim zamanlara nisbətən, elmin inkişafı müasir şəraitdə daha asandır. Elmi nailiyyətlər nəticəsində kompüter erasına qədəm qoymuşuq. Azərbaycanda da bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır. Məktəblər yeni texniki avadanlıqlarla təchiz olunur. Bunlar hamısı dövlətin müəyyən etdiyi strategiyaya əsasən həyata keçirilir. Bəs, təhsil niyə dövlət üçün bu qədər əhəmiyyətlidir? Qayıdaq qeyd etdiyim məsələyə.

Qeyd etdiyim kimi, savadsız cəmiyyət heç kimə və heç nəyə yararlı deyil. Hazırda da dövlət savadlı kadrların iqtisadi, hərbi, siyasi və elm sahəsində irəliləməsini qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Axı Azərbaycan gənci bu imkandan niyə də istifadə etməsin? Dövlətimizin onun üçün yaratdığı bu şəraitdən yararlanıb ölkəsinə, cəmiyyətinə niyə fayda verməsin?

Ölkəmizdə məktəblərin . Hər bir təhsil ocağı dövlətin nəzarəti altındadır. Məktəblərdə savadlı müəllim ordusu var. Hər il minlərlə məzun tələbə adını alır. Məzun olmaq üçün isə yolun orta məktəbdən keçməli, ordakı təhsildən yararlanmalısan. Sizi bir müsahibimizlə tanış etməkdə də məqsədimiz var. Hələ məktəbə yenicə yollanan bu şagird indidən düşünür ki, ali təhsil almalıdır.

Nuriyeva Nuray Sahib qızı 20 iyun 2012-ci ildə Bakı şəhərində dünyaya gəlib. 2018-ci il tədris ilində valideynlərinin onun üçün aldığı çantasını balaca çiyinlərinə götürərək ilk dərs gününə, məktəbə yollanıb. Onun oxuduğu məktəb Bakı şəhəri Sabunçu rayonunu Zabrat qəsəbəsində yerləşən 71 saylı tam orta məktəb oldu. Artıq məktəbə getdiyi gündən aylar keçir. Nuray isə bu müddəti heç də boş vaxt kimi keçirməyib. Hər gün dərslərinə göstərdiyi diqqət nəticəsində birinci yarımilliyin əlaçısı adını da alıb. İlk dərs ilinin uğurlu şagirdlərindən olduğu üçün valideynləri ilə yanaşı ilk müəllimi Nisa Şükürova da çox sevinir. Axı müəlliminin öyrətdiklərini yaddaşına həkk edib onun zəhmətini itirməyib. Ağıllı, tərbiyyəli olan Nuray bala nəinki yaxşı oxuyur, onun gözəl rəsm çəkmək qabiliyyəti də var. Boş zamanlarında al-əlvan rənglərin harmoniyasından gözəl rəsmlər yaradan Nuray əl işləri ilə göz oxşayır, öz daxili dünyasının zənginliklərindən xəbər verir. Bu balaca zərif qız böyüyəndə isə həkim olmaq istəyindədir. Evin ikinci övladı olan Nuray ailənin tək qız övladıdır. Atasının, anasının Nurayla bağlı arzuları da sonsuzdur. Valideynlərin hər ikisi gələcəkdə övladlarını savadlı, layiqli bir kadr kimi görmək istəyirlər.

Ailəsinin sevimlisi olan Nurayın atası Nuriyev Sahib Vasif oğlu özəl iş sahibidir. Anası Nuriyeva Aydan Abdulla qızı, 71 saylı tam orta məktəbin ibtidai sinif müəllimidir. Qardaşı Nuriyev Rəvan Sahib oğlu isə 3-cü sinifdə oxuyur. Redaksiyamız adından Nuray balaya təhsil həyatında, qarşıdakı ömür yolunda uğurlar arzulayaraq hər zaman seçilənlərdən olmasını diləyirik.

# Pərvin Əhmədli





**"Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun.**
**Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin"**
**(Əbülhəsən Bəhmənyar)**

Bir vaxtlar köhnə məktəblərdə, ağır şərtlər altında və qeyri münasib şəraitdə dərs keçməyə məcbur olan şagirdlər indi hamısı da olmasa əksəriyyəti müasir tipli məktəblərdə, rahat sinif otaqlarında, dövlət hesabına verilən yeni dərsliklər əsasında dərslərini keçirlər. Hər bir ölkə vətəndaşının yaxşı təhsil almaq, sağlamlığını qorumaq, istədiyi sənətlə məşğul olmaq və digər hüquqlarından istifadə etmək hüququ var. Və bu hüquqlar vətəndaşa məxsus olduğu ölkə təminat verməli və real şəkildə təmin etməlidir. Ən böyük hüquqi təminat isə vətəndaşın uşaq vaxtında əldə etdiyi və yetkinlik yaşına çatana qədər özünü şəxsiyyət, cəmiyyətə yararlı bir şəxs kimi hiss etdiyi bütün vacib hüquqlar toplumudur.

Çünki dövlətin gələcəyi onun yetişdiyi gələcəkdən asılı olduğu üçün uşaqların da necə böyüməsi, hansı hüquq və şərtlər altında yetişdirilməsi məsuliyyəti vətəndaşı olduğu dövlətin borcudur. Müasir ümumtəhsil ocaqlarında çoxlu sayda istedadlı və bacarıqlı şagirdlər yetişib, yetişməkdədir. Və onlara edilən ən böyük yaxşılıq, hüquqi yardım zamanında onları aşkarlayıb üzə çxartmaq və lazımı dəyərini diqqətə çatdırmaqdır. Onları məktəb-məktəb axtarıb tapmağa çalışan jurnal əməkdaşlarımızın qəhrəmanlarından biri də Əhmədli Pərvindir. Gəlin sizi belə ağıllı, tərbiyəli, gələcəkdə ölkəsinə fayda vermək üçün indidən yaxşı oxumağa çalışan bu şagirdlə tanış edək.

Əhmədli Pərvin Mərkəz oğlu 18 iyul 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Səbail rayon 51 sayli tam orta məktəbin 1-ci sinfinə yollanan Pərvin ilk təhsil həyatına sevinclə başlayıb. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir.

Əhmədli Pərvin də sorağında olduğumuz fəal şagirdlərimizdəndir. O, dərslərində çox çalışqan və nümunəvidir. Müəllimlərini çox sevir, xüsusilə də Zülfiyyə və Sevinc müəllimləni. Ən sevimli fənni riyaziyyatdır ki, Pərvin bir çox ağır riyazi tənlikləri indidən peşəkarcasına həll etmək istedadına malikdir. Daim öz üzərində işləyir ki, dərslərində qabaqcıl və bacarıqlı şagirdlərdən biri olsun. Qiymətlərinin əla, öyrənilməsi vacib məlumatlardan anlayışlı olması üçün çalışır. Ona dərs deyən müəllimlər də onun belə nümunəvi şagird olması üçün əlindən gələni əsirgəmir.

Böyüyəndə isə polis olmaq arzusundadır. İstəyir ki, Polis Akademiyasına daxil olsun. Oranı bitirdikdən sonra vətəninin, xalqının təhlükəsizliyini qorusun. O savadlı olduğu qədər vətən sevgisini bu yaşda dərk edə bilən böyük ürək sahibidir.

Asudə vaxtlarını da boş keçirməklə arası olmayan Pərvin çoxlu kitablar mütaliə edir, təkrar biliyin anasıdır deyimini əsas tutub dərslərini təkrarlayır, dünyagörüşünü artırmaq üçün maraqlı filmlər izləyir. Valideynləri də onunla qürur duyur, gələcəyini parlaq görmək istəyirlər. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əhmədov Mərkəz Qafqaz oğlu, sürücüdür.

Anası Əhmədova Gülbəyim Çərkəz qızı, evdar xanımdır. Özündən yaşca böyük bacısı Nərmin 12 yaşında, kiçik qardaşı Murad isə 4 yaşındadır.

Redaksiya heyyəti adından Pərvinə müvəffəqiyyətlər arzulayaraq ömür yolunun parlaq olmasını diləyirik. Ümidvarıq ki, gələcəyin ən yaxşı, vətənpərvər vətəndaşı və məsuliyyətli peşə adamı olacaq. Ölkəsinin, vətəninin keşiyində şərəf və ləyaqətlə dayanacaq.



# Əliyeva Lala



**"Elmsiz praktikaya aludə olan adam gəmini sükansız və kompassız idarə edən kapitana bənzər. O, hara üzdüyünü özü də bilməz"**
**(Leonardo Da Vinçi)**

Əsərləri olmayan alim, barı olmayan ağaca bənzədiyi kimi, illərin pedaqoqunun da yaxşı yetirmələri yoxdursa ona peşəkar müəllim demək düzgün deyil. Çünki əsl müəllim gözünü nurunu paylayan, bildiyini öyrətməyə meyilli olan müqəddəs peşə sahibləridir. Çoxumuz müəllimlərimizi uşaq vaxtı toxunulmaz, müqəddəs hesab etmişik. Zənn edərdik ki, onlar nə qidalanar, nə ağlayar, nə də mübahisə edər. Onlar daim səhvsiz-qüsursuz varlıqlar kimi şagirdlərə elm-bilik öyrədər, daim oxuyar və oxutdurar. Elmi təfəkkürdə həmişə poeziya elementi olduğu kimi müəllimlərin də yaradıcılıq dünyaları zəngin olur. Onlar həyatı, şagirdlərini, yetirmələrini məhz incə ruhları ilə sevər, iti zəkaları ilə öyrənib, elmi-biliyi ilə maarifləndərər. Təkcə şagirdlərin deyil, eləcə də o şagirdləri yetişdirən müəllimlərin də daim diqqət və qayğıya, əməyinin qiymətləndirilməsi və işıqlandırılmasına ehtiyac var. Çünki müəllimdən -müəllimə adına görə deyil, məhz öz ixtissasında, öz tədrisində yanaşma tərzinə, əldə etdiyi uğur və adlara görə fərq var. Qayəsi təhsili təbliğ etmək olan jurnalımızın bu yazısı öz peşəsinin həm peşəkarı, həm də həvəskarı olan Əliyeva Lalə müəllimə həsr olunub. Yazıda onun keçdiyi ömür yolu və şərəfli peşə fəaliyyəti işıqlandırılıb.

Əliyeva Lalə Rza qızı 1980-cı il sentyabrın 5-də Ağdamın Baş Qərvənd kəndində doğulub. 1986-cı ilin tədris ilindən ilk məktəb həyatına start verən Lalə müəllim 8-ci sinifə qədər doğma kəndlərinin məktəbində təhsil alıb. 1993-cü ildə erməni təcavüzü ilə əlaqədar olaraq təhsilini Bərdə şəhər 7 saylı məktəbində 8-ci sinifdən davam etdirərək bir ildən sonra həmin məktəbin 9 illiyini tamamlamışdır. Yuxarı siniflər üzrə orta təhsilini davam etdirmək məqsədilə Ağdam rayon 122 saylı köçkün orta məktəbinə daxil olmuş, 1997-ci ildə tam orta təhsilini uğurla bitirmişdir. Ali təhsil almaq istəyi ilə həyat yoluna davam edən Lalə müəllim elə həmin ildə N.Tusi adına pedoqoji institunun Şuşa filialının riyaziyyat fakultəsinə qəbul olub. 2002-ci ildə həmin institutu bitirib. Təhsil ilə paralel olaraq iş həyatına da başlayan Lalə müəllim ali təhsil illərinin ikinci ilindən etibarən müxtəlif yerlərdə işləyib. İlk iş yeri 1998-ci ildə Bərdə şəhər F.Muradov adına 7 saylı əsas məktəbdə kitabxanaçı vəzifəsi olub. 2001-ci ildən Ağdam rayon 9 saylı köçkün orta məktəbində UBTR-i vəzifəsində çalışmağa başlayır ki, iki ildən sonra Ağdam rayon 97 saylı köçkün məktəbində isə təşkilatçı və müəllim kimi fəaliyyətini davam etdirir. Bir yerdə uzun müddət işləmək müəllimə qismət olmasa da, ancaq fəaliyyəti davamlı olub. 2008-ci ildən yenidən Ağdam rayon 9 saylı köçkün tam orta məktəbində müəllim kimi fəaliyyətini davam etdirir. Çətin və məsuliyyətli ömür yolunun yolçusu olan Lalə müəllim 2012-ci ildən etibarən Ağdam rayon 76 nömrəli köçkün tam orta məktəbə direktor vəzifəsinə təyin edilib. Ailəlidir. İki övlad anasıdır. Oğlu Əlizadə Vəlinin 17 yaşı, qızı Əlizadə Gülgünün 16 yaşı var. Həyat yoldaşı Arif Əliyev sənətkardı. Həm ailəsi, həm peşəsi ilə nümunəvi şəxslərdən olan Lalə müəllim hər zaman çalışır ki, direktoru olduğu məktəbin yetirmələri uğurlu, savadlı və nəaliyyətlərinə görə seçilənlərdən olsun. Jurnalımızın redaksiyası adından Lalə müəllimə pedoqoji fəaliyyətində uğurlar və çoxlu şagird yetirmələrinin uğurlarını görməyi, xoş sədalarını eşitməyi arzu edirik. Bir müəllimə bundan gözəl dilək, bundan xoş istək ola bilməz!.

# Xaliq Əlizadə



**“Elmi axtaran kimsəni Cənnət axtarar günah axtarani isə Cəhənnəm odu axtarar”**

**(Həzrəti Əli)**

Elm bütün nəaliyyətlərə görə xəyallara borcludur. Çünki zamanla edilən hər bir elmi kəşf öncə xəyalların, beyinin mücərrəd fikirlərinin ümumi nəticəsidir. Hətta elm haqqında müxtəlif dühaların, dahilərin, filosofların kəlamları belə xəyalların ifadələnmiş formasıdır. Həm də bu xəyallar sonradan uzun müddətli praktiki yol keçir, öz təsdiqini tapır.

“Elm ağlın çırağıdır”, “Elm elə bir xəzinədir ki, nə qədər sərf etsən bir o qədər artar”,” Elmsiz adam meyvəsiz ağacdır”- kimi müdrik deyimlər söylənmişdir. Müasir dövrümüz sivilizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Onun üçün də müasir gənclərimizin təhsilə yiyələnmələri vacib şərtlərdəndir. Təhsilin bünövrəsi məktəbdə qoyulur, bu fikri Ulu öndərimiz Heydər Əliyev belə xarakterizə edirdi:

“Şəxsən mənim müəllimə böyük hörmətim olubdur. İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim-hamısı orta məktəbdə aldığım təhsillə bağlıdır. Mən bu gün müəllimim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirirəm”.

Bu yazımızın qəhrəmanı elmə dərindən yiyələnmək üçün qarşısına indidən böyük məqsədlər qoymuş Xaliq Əlizadədir. Əlizadə Xaliq Səfər oğlu 2010-cu ildə avqust ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Xaliq 2016-cı ildə Zəngilan rayonu 21 saylı tam orta məktəbin 1-ci sinfinə yollanıb. O, hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Xaliq sinifdə öz aktivliyi, fəallığı ilə seçilir. O, daima dərslərinə məsuliyyətlə yanaşır,həmişə hazırlıqlı gəlir. Ən böyük uğuru oxuduğu bu üç ildə ilin yekunu və yarım illiyi əla qiymətlərlə başa vurmasıdır. Onun ən sevdiyi fənlər riyaziyyat, Azərbaycan dili və ingilis dili, ən sevdiyi müəllimləri isə Nəsibə müəllim və Natəvan müəllimdir. Boş vaxtlarında Xaliq kitab oxumaq və rəsm çəkməklə məşğul olur. Müəllimlərinin sevimlisi olan Xaliqin ailəsi 4 nəfərdən ibarətdir. Atası Səfər Əliyev, usta işləyir. Anası Muxəstə Əliyeva və bacısı Xədicə Əlizadədir.

Xaliqin ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib polis olmaqdır. Bunun üçün isə keyfiyyətli ali təhsil almaq və zəngin təcrübəyə sahib olmağı qarşısına məqsəd qoyub. Biz də redaksiyamız adında Xaliqə uğurlar arzu edir və hər zaman valideynlərinin və müəllimlərinin fəxri olmasını diləyirik. Yolun daima açıq, azruların çin, diləklərin gerçək olsun.



# Əli Əhmədov





**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alim rütbəsi ucadır əlbət.**

***Nizami Gəncəvi***

Tərbiyə nəfslə, təhsil biliklə bağlı olsa da bunların hər iki idarəedicisi insan övladıdır. İnsan gərək şəxsiyyət kimi yetişmək istəyirsə bu iki vacib həyati amilə diqqət yetirməli və əməl etməlidir. Bu məsələlərdə dövlətin, onun təhsil sisteminin üzərinə böyük məsuliyyət düşür. Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmi nailiyyətlər nəticəsində komputer əsrinə qədəm qoymuşuq. Ölkəmizdə də bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır. Təhsilin inkişafı nəticəsində müasir elmlə və müasir təhsil sistemi ilə ayaqlaşmağa çalışan ölkəmizin təhsil sistemi dünya təhsilində layiqli yerini tutması üçün böyük bir inkişaf yolu keçməsi qaçılmazdır. Çünki məktəblərimizdə də təhsil sistemindəki yeniliklər uşaqlarımızın uğurlarının artıracaq və sistemli yeniliklər həm də uğurlu nəticələrə səbəb olacaq.Təhsildəki uğurları ilə yenicə seçilən şagirdlərimizdən biri də Əhmədov Əlidir. Bu yazıda onun haqqında danışmaq yaş etibari ilə tez olsa da ancaq savadlı və bacarıq imkanlarına görə gələcəyini parlaq görməyimiz yazını labüd etdi.

Əhmədov Əli Fəxrəddin oğlu 27 may 2012-ci ildə Saatlı rayonu Novruzlu kəndində dünyaya göz açıb. O, 2018-ci ildə Nəriman Nərimanov adına 2 saylı Beynəlmiləl Təbiət Və Texniki fənlər liseyinin 1-ci sinfinə qəbul olmuşdur. Bu il başlamasına baxmayaraq tərbiyəsi və dərslərindəki uğurları ilə müəllimlərinin sevgisini qazanıb və məktəbə yeni başlamasına baxmayaraq əlaçı olub. Ən sevdiyi fənlər Azərbaycan dili və riyaziyyat, ən sevdiyi müəllim isə Azadə müəllimdir. Boş vaxtlarında dərslərini təkrarlamağı və uşaq kitabları oxumağı sevir. İndidən kitab oxumağa, öyrənməyə böyük meyli, istəyi var. O, gələcəkdə polis peşəsinə yiyələnmək istəyir. Bu onun ilk arzularındandır deyə düşünürük gələcəkdə fikrini və istedadına uyğun sənət seçimində dəyişikliklər edə bilər. Həyat bir mübarizədir, gah qalib, gah da uduzmaq olar. Amma əsla ruhdan düşmək olmaz. Elə hər zaman arxa-dayağı olan ailəsi də ona bunu təlqin etməkdə maraqlıdır.

Onun ailəsi 5 nəfərdən ibarətdir. Atası Əhmədov Fəxrəddin Nurəddin oğlu hazırda usta olaraq fəaliyyət göstərir. Anası Həsənova Aytəkin evdar qadındır.Əhmədova Səkinə adlı bacısı və Əhmədov Fariz adlı qardaşı var.

Yaxşı kitab çox qiymətli xəzinə olduğu kimi, yaxşı insan, peşəkar mütəxəssis də bir xəzinədir. Biz də jurnal kollektivi adından Əhmədov Əliyə enişli-çıxışlı həyat yolunda daima uğurlar arzu edirik.Valideynlərinin və müəllimlərinin fəxri olmasını diləyirik.



olub. 2015-ci ilin tədris ilində isə Fizuli rayonu adına 1 saylı tam orta məktəbin birinci sinfinə qədəm qoyaraq şərəfli və unudulmaz məktəb illərinə start verib. Hal-hazırda həmin məktəbin 4 sinif şagirdidir.Dörd ildir ki, bu illərin acılı və şirinli məqamlarını yaşamaqdadır. Amma Suad biliyi, bacarığı və aktivliyi ilə müəllimlərinin sevgisini elə təhsilinin ilk ilindən qazanmağı bacarıb. Ən sevdiyi fənn riyaziyyat , ən sevdiyi müəllim isə Hicranə müəllimdir. Çünki O dəqiq və məntiqi təfəkkürü çox sevir. Suad dərslərindən əlavə idmanla da məşğul olur. Ən sevdiyi idman növü isə karetedir. Hətta Kkarete üzrə qatıldığı yarışda 1-ci yer tutaraq qalib adına layiq görülüb.



Ona hər zaman ailəsi dəstəkdir və gələcək həyatının düzənində bir valideyn kimi əllərindən gələni əsirgəməməyi deyirlər.

3 nəfərlik ailə üzvülərindən Atası-Quluyev Mais, anası-Quluyeva Gülanə və bacısı-Quluzadə Sunaydır.

Müdrik şəxs vəzifəli adamlara möhtac olmaya bilər. Amma vəzifəli şəxslər müdrik adama möhtacdır deyimini əsas götürüb Suada gələcək həyatında böyük uğurlar əldə etməsini və seçdiyi sahədə uğurlu olmasını arzulayırıq. Onun ən böyük arzusu hüquq mühafizə orqanlarında ixtisaslı kadr kimi yetişərək çalışmaqdır.

Biz də redaksiyamiz adından ona dərslərində və idmanda uğurlar arzu edirik. Xoş sədaların, xoş xəbərlərin saysız-hesabsız olsun!





# Əlizadə Xədicə





**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər"**

**(Fransis Bekon)**

Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir deyimi həmişə öz təsdiqini tapır.Təhsil almaq nəyə gərəkdir?-sualının qısa ancaq dolğun bir cavabı var: daha güclü, daha qüvvətli olmaq. Axı elmsiz adam qanadsız quş kimidir.Təhsilli insan hər şeyə qadirdir. Yaşadığımız dövr sivilizasiya dövrüdür, dünya dövlətlərinə inteqrasiya əsridir. Bütün problemlərin həlli yolu elm, təhsil yoludur. Elə ölkəmizdə də bu istiqamətdə işlərin aparılmasına ciddi ehtiyac var ki, elm-təhsil istiqamətində inkişaf etmiş ölkələrdə olduğu kimi böyük nəaliyyətlər olsun. Təhsilimizin daha da inkişaf etdirilməsi üçün "Təhsil Qanunları" hazırlanması, fərmanların verilməsi bəs etmir. Təhsil ocaqlarının, məktəblərin təmiri, yenidən qurulması, inşa edilməsinə, dərsliklərin keyfiyyətinə, sistemli və keyfiyyətli təhsilin bərqərar olmasına can atılmalıdır ki, elm-təhsil sahəsindəki gözləntilərimiz və ümidlərimiz doğrulsun.

Bütün bunlarla yanaşı, biz müstəqil Azərbaycan vətəndaşları olaraq, təhsilimizin güclənməsi, inkişaf etdirilməsi üçün böyük işlər görməliyik. Oxumalı, çalışmalı, uca zirvələr fəth etməliyik ki, həm vəzifə borcumuzdan çıxaq, həm də həyat yolumuza işıq salaq. Azərbaycanımızın firavanlığı, çiçəklənməsi, qüdrətlənməsi, bütün dünyada öz sözünü əzmlə deyə biləcəyi naminə əlimizdən gələni əsirgəməməliyik!

Bu yazı qəhrəmanı da təhsil almağın vacibliyini dərk etmiş və keyfiyyətli təhsilin həyat qurucusu və xilaskarı olduğunu bilən Əlizadə Xədicədir. Xədicə öz ağlı,savadı,tərbiyəsi və bacarığı ilə həm müəllimlərinin ,həm də sinif yoldaşlarının sevimlisinə çevrilmiş nümunəvi şagirdlərdəndir. Əlizadə Xədicə Səfər qızı 2008-ci ildə may ayının 3-də Bakı şəhərində anadan olub. Xədicə 2014-cü il sentyabr ayının 15-də 1-ci sinfə Zəngilan rayon 21 saylı tam orta məktəbində başlamış və hazırda həmin məktəbin 5-ci sinifində təhsil alır. Xədicənin ən sevdiyi fənn Azərbaycan dili,ən sevdiyi müəllimi isə Sona müəllimdir. Xədicə bütün dərslərini əla qiymətlərlə oxuyur. Dərs ilini müvəffəqiyyətlə başa vuran Xədicə "Tərifnamə" ilə mükafatlandırılıb. Dərslərində əlaçı olması ilə yanaşı Xədicə, həm də Fizuli rayon musiqi məktəbinin 4-cü sinifində fortepiano üzrə musiqi təhsili alır. Boş vaxtlarında Xədicə hekayələr kitabı oxuyur və cizgi filmi izləyir.

Xədicənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Əliyev Səfər bəy, anası Əliyeva Muxəstə xanım,qardaşı Əlizadə Xaliq və özü Xədicə.

Xədicənin ən böyük arzusu təhsilini uğurla başa vurub həkim olmaqdır. Biz də redaksiyamız adından Xədicəyə uğurlar arzu edirik,ümid edirik ki,gələcəyin savadlı,ağıllı,bacarıqlı,sayılıb-seçilən həkimlərindən olacaq.


Zəngilan rayonu 21 saylı orta məktəb

TƏRİFNAMƏ

verilir.

"Yarım ili müvəffəqiyyətlə başa vurduğuna görə"

Əlizadə Xədicə Səfər qızına

kimə

# Şərbətli Nurlan



**Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək**
***(Əvhədi Marağayi)***

Təhsil xəzinədir, elm onun açarıdır fikri Seyid Əzim Şirvaniya məxsusdur. 19-cu əsrdən günümüzə yadigar qalan bu ifadə ilə müəllif təhsilin önəmini, elmin hikmətini diqqətə çatdırır. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması və həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Sosial-iqtisadi həyatın müasirləşməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqlar deyil, həm də qazandıqlarını, öyrəndiklərini tətbiq etməsinə şərait yaratmasıdır. Təhsil prosesində əldə olunan bilik,bacarıq və əxlaqi dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımı şərait yaradır, onun biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətandaşa çevirir. Buna görə də bilik və bacarıqlarımızı daim artırmalı və cəmiyyətə faydalı bir fərd olmaq üçün çalışmalıyıq. Jurnalın ana xəttinə çevirdiyimiz bu sujetlə davam edərək növbəti yazını təsilindəki uğurları ilə seçilən nümunəvi şagirdlərdən biri olan Şərbətli Nurlana həsr edirik. O da axtarışında olduğumuz bacarıqlı və savadlı şagirdlərdən biridir.

Şərbətli Nurlan Niyaməddin oğlu 14 iyun 2009-cu ildə Biləsuvarın Dərvişli kəndində anadan olub. O, 2016-cı ildə N.Sultanov adına Dövrüşlü kənd tam orta məktəbinə qədəm qoymuşdur. Hal-hazırda isə həmin məktəbin 3-cü sinfində təhsil almağa davam edir. Ötən üç il müddətində O, biliyi, məsuliyyəti və dərslərindəki aktivliyi ilə müəllimlərinin sevgisini qazanıb. Həmişə çalışır ki, gündəlik dərslərini yaxşı mənimsəsin ki, gələcək də təhsil həyatı uğurlu olsun və həyatında onun təsirini hiss etsin. Onun uğur və nailiyyətləri dedikdə savadı və biliyi ilə şeçilən nümunəvi şagird olması ağıla gəlir və dərslərindəki uğurlu fəaliyyətinə görə əlaçıdır. Ən sevdiyi fənlər Azərbaycan dili və riyaziyyat, ən sevdiyi müəllimlər isə Anurə müəllim və Nurəddin müəllimdir. O, əlavə olaraq bütün müəllimlərini çox sevdiyini və dərslərindəki uğurları üçün onlara təşəkkürlərini bildirib. Nurlan boş vaxtlarında kitab oxumağı və mütaliə etməyi sevir. Çünki mütaliə ilə həm dünyagörüşü artır, həm nitqi püxtələşir. O zəhmətkeş, halal zəhmətlə dolanan ailənin övladıdır. Ailəsinin sevinci olan Nurlanı valideynləri uğurlu və cəmiyyətə faydalı bir şəxs kimi yetişdirmək istəyir. Bunun üçün məqsəd və israrlı olmaq, dərslərini orta məktəbdə yaxşı mənimsəmək və gələcəyinə inamlı olmaq gərəkir. Nurlana da ailəsi daim bunu aşılayır və yönləndirir.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Şərbətov Niyaməddin şəxsi təsərrüfatla məşğuldur. Halal zəhmət və alın təri ilə çörəyini qazanır və övladlarını böyüdür. Anası Məmmədova Gülnarə evdar qadındır. Şərbətli Nurlanə adlı isə bir bacısı var.

Şərbətli Nurlan gələcəkdə savadlı bir müəllim olmaq arzusundadır. Gələcəyini də ona elm öyrədən müəllimlərdən ibrət alaraq pedaqoq sənəti üzərində kökləyib. Müəllimlik çətin olduğu qədər həm də şərəfli və müqəddəs bir peşədir. Bu sənətin incəliklərinə, pisxoloji məqam və elmi bacarıq və savadına yiyələndikdən sonra peşəkar bir müəllim olmaq istəyən Nurlana jurnalımız adından ona həyat yolunda uğurlar arzu edir, valideynlərinin və müəllimlərinin daima fəxri olmasını diləyirik.



# Quluzadə Suad







**Nadan insanlıqdan uzaqdır gerçək.**
**Nursuz göz kimidir elmsiz ürək.**
**(Əvhədi Mağarayi)**

Müasir dünyada hər bir ölkənin inkişaf gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Çünki sağlam cəmiyyət qurmaq üçün birincisi təhsil, ikincisi o təhsilin bəhrəsini görəcək və davamını apara biləcək sağlam gənclikdir. Sağlamlığın ən vacib amili isə təbii ki, təhsillə yanaşı idmandır. İdman təkcə fiziki qüvvə və sağlamlıq deyil, həm də ölkəmizi dünya ölkələri arasında təmsil edəcək siyasi bir güc ruporudur. Bununla da ölkəmiz dünyanın müxtəlif ölkələri arasında tanınır və yalnız biliyi ilə yox, həm də gücü ilə də seçilir.Amma təhsillə idmanı eyniləşdirmək düzgün deyil, çünki təhsil həyatın vacibi şərtidir. Təhsilsiz güc sahibləri beyinlə deyil, qol gücü ilə həyatda qalarlar, yaşam səbəbini onda görərlər. Bu isə bir yetkin və kamillik mücəmməsi olan Kiçik yaşlarından həm təhsildə, həm də idmandakı nailiyyətləri ilə seçilən nümunəvi şagirdlərdən biri də Quluzadə Suaddır. Hər ikisini bir arada məşğul olmaq özü bir məharət, özü bir bacarıq tələb edir ki, jurnalımızın bu yazısında da onun bu bacarıq və həyatı haqqında qısa söhbət açacağıq.

Quluzadə Suad Mais oğlu 6 avqust 2009-cu ildə Bakı şəhərində anadan



# İlkin Hüseynli





**"İnsanlar uzun müddət misi qızıla çevirmək arzusunda olublar. İndi elm misi elə şeylərə çevirir ki, qızıl ona həsəd aparır.**

***(Tur Xander)***

Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır. Abdulla Şaiq kimi tanınmış mütəfəkkir bir şəxsiyyət daim bir cəmiyyətin, millətin tərəqqisini elmdə, yüksək təhsil keyfiyyətində görüb. Elə məhz yazının giriş hissəsində verdiyimiz məşhur ifadə ilə.

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə bağlılığı olmuşdur. Ola bilsin ki, bəzi cəmiyyətlər təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs səfərbər edə bilməsin, ancaq hamı təhsilin ictimai həyatda mərkəzi rolunu şərtsiz qəbul edir. Təhsilin sosial əhəmiyyətinin digər bir göstəricisi ondan ibarətdir ki, cəmiyyət hər hansı bir böhranla üzləşdikdə, bu ilk növbədə öz əksini məhz təhsil sahəsində göstərir. Ona görə də təhsili güclü olan dövlət hər cür sosial-iqtisadi böhrandan çıxmağı rahatlıqla bacarır. Əks halda isə milyon təbii sərvətlərə sahib olsun, amma ixtisaslı kadrları, sağlam iqtisadi modeli, yüksək təhsil sistemi yoxdursa o ölkənin gələcəyi də, gələcək nəsli də çətin durumdadır. Bir insanın nicatı onun yüksək təhsilində və peşəsinin mütəxəssisliyindədir. Nadan olub elmə həqarətlə baxmaqdansa, savadsız olub ona həsrətlə baxmaqdansa müdrik ol ondan bəhrələn. Elə bunu əsas şüar tutub yola çıxdığımı jurnalımızın da əsas motivi, qayəsi bu fikirlə birə-bir uzlaşır.Qələmin işi yazmaq, jurnalın işıq işıqlandırmaq, jurnalistin işi də qələm və işıqlandırmaqdan düzgün istifadə etməkdir. Əsasən istedadlı və bacarıqlı şagirdlərin yer aldığı jurnalın bu yazısının qəhrəmanı tələbədir. Yəni həyatının mənasını təhsil və elmdə görənlərdəndir. Çox vaxt şagirdlər olan qəhrəmanlarımızı bu yazıda artıq tələbə adını qazanmış, yəni aldığı orta məktəb təhsili ilə kifayətlənməyib ali təhsil almağa başlayan savadlı tələbə Hüseynli İlkin əvəz edir.

Hüseynli İlkin Əlisa oğlu 25 oktyabr 2001-ci ildə Bilsuvar rayonu Amankənd kəndində anadan olub. O, 2007-ci ildə Nemət Sultanov adına Dərvişli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Ötən il orta məktəbi bitirərək ali təhsil həyatına başlayıb. Hazırda Lənkəran Dövlət Universitetinin 1-ci kurs tələbəsidir. Onun məktəb vaxtı ən sevdiyi fənn Azərbaycan dili, ən sevdiyi müəllimlər isə Elsəvər müəllim, Hidayət müəllim, Nəzrin müəllim, Aygün müəllim, Baxcagül müəllim və məktəb direktoru Fizuli müəllimdir. Onun ən böyük uğuru öz biliyi hesabına ali məktəbə qəbul olması və tələbə adı qazanmasıdır. İlkin bu uğruna görə bütün müəllimlərinə öz təşəkkürünü bildirir və zamanında əziyyət çəkib orta təhsilini yaxşı oxuması üçün müəllimlərinin ona öyrətdiyi bütün elmlərə görə minnətdardı. Boş vaxtlarında idmanla məşğul olmağı sevir və ən sevdiyi idman növü futboldur. Asudə vaxtlarında futbolla məşğul olur. Arzuladığı peşə Ekologiya-Təbiət üzrə mütəxəsis olmaqla bu istiqamətdə inamla addımlayaraq sabaha nikbinliklə baxır. Ailəsi də daim ona köməkdaş və məsləkdaşdı.

İlkinin ailəsi 5 nəfərdən ibarətdir. Atası Hüseynov Əlisa Şamil oğlu şəxsi təsərrüfatçıdır. Anası Məmmədova Gülayə evdar qadındır. Hüseynli İlqar adlı qardaşı və Hüseynli Fəranə adlı bacısı var.

Şərafətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə onundur. Odur elmə yiyələnmək yolunda biz də redaksiyamız adından Hüseynli İlkinə tələbəlik həyatında uğurlar arzu edir, hər zaman valideynlərinin fəxri olmasını diləyirik. Səsin daim ucalardan gəlsin, müəllimlərin də baxıb layiqli yetirməsi kimi şərəflənsin.



# Ömər Məmmədli






**"Elmsiz praktikaya aludə olan adam gəmini sükansız və kompassız idarə etmək istəyən kapitana bənzər; o, hara üzdüyünü özü də bilməz"**

**(Leonardo da Vinçi)**

Məlumdur ki, elmi olub ağlı olmayana elm əziyyət verər. Bir də Leonardanın fikrincə desək elmsiz praktiya sahiblənib peşəni naşı idarə edərək ağalıq iddiasına düşənlər isə ətrafına , cəmiyyətə əziyyət verər. Vay o ölkənin halına ki, elminin başında saxta alimlər, idarəçiliyinin mərkəzində riakar siyasətçilər, cəmiyyətin əksəriyyəti bunu fərq etməyən, etsə belə onu düzəltmək, pozulmuş haqqını tələb etmək gücündən məhrum olmuş elmsiz, hüquqsuz, xəstəhal kütlə ola. Burda nə sağlam cəmiyyət, nə elmi-texnoloji inkişaf, nə də ağıllı, bacarıqlı insan kapitalından danışmaq olar, nə də gələcək nəsillərin həyatına nikbin baxmaq. Hər bir millətin gələcəyi onun zamanında düzgün yetişdirib, təməlini sağlam idarəçilik mexanizmləri əsasında qoyduğu yetkin insan nəsillərindən asılıdır. Gələcəyi öz əmin əllərində sabah daşıya biləcək gələcək yoxdursa, onda o cəmiyyətin gələcəyi də yoxdur. Güc və qorxu ilə var olmağın dövrü müəyyən zaman müddəti çəkir ki, sonda həm itirən, həm itən tərəf olmağın qaçılmazdır.

Heç bir millət hələ qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür ki, bu sözlərin müəllifi Nəriman Nərimanov da həmişə millətimizin gələcəyini elmli-bilikli, keyfiyyətli ali təhsilli gələcəklərin timsalında görürdü. O gələcəyin simaları hər zaman olub, sadəcə zaman və düzgün tanıtım ruporu olmalıdır ki, onlar həm özünü tanısın, həm cəmiyyət onları aşkarlayıb sahib çıxsın. Bu məqsədlə yaradılan jurnalın bütün çatışmazlıqlara rəğmən əsas hədəfi odur. Kiçik hədəf və maraqlar belə çox sayda şagirdlərin tərcüməyi halını jurnalımızın müxtəlif saylarında işıqlandırır, onlara gələcək həyatında motivasiya mənbəyi olur. Elə bu yazını da Ömər Məmmədlinin az, ancaq ümidli tərcüməyi halına həsr edirik.

Ömər Məmmədli Maarif oğlu 2011 -ci ilin fevralın 12-də Bakı anadan olub. Uşaqlıqdan şən və şıltaq olan Ömər artıq iki ildir ki, təhsil həyatına başlayaraq elm öyrənməyi özünə əsas məşğuliyyət seçib. 2016-cı ildə Lökbatan qəsəbəsində 106 nömrəli tam orta məktəbin birinci sinfinə yollanan Ömər hazırda Qobu park şəhərciyində yerləşən 32 nömrəli Ağdam rayon tam orta məktəbində təhsilini davam etdirir. Hazırda həmin məktəbin 2a sinifində təhsil alan balaca Ömərin gələcəklə bağlı xəyalları heç də kiçik deyil. Deyir dərslərimi yaxşı mənimsəyib gələcəkdə hüquq sisteminə yönələcəm. Bu sahənin iş prinsipi balaca Ömərin diqqətini özünə cəlb edib və gələcəkdə polis kimi fəaliyyət göstərməklə xalqına layiqli xidmət etmək istəyindədir. Bütün fənnləri yaxşı mənimsədiyinə görə sinfin əlaçılarındadır. Riyaziyyatı və ingilis dilini daha çox oxuyur və ən sevimli fənn kimi də onları digərlərindən ayırır.Çünki Ömər yaşca kiçik olsa da anlayır ki, riyaziyyat elmlərin şahı, həyatın formuludur. Bu fənni bilən, anlayan həyatda əzm və zəhmət hesabına böyük uğurlara sahiblənə bilər. Elə onu riyaziyyata bağlayan Talıbova Günel də ən çox sevdiyi müəllimidir. Xarici dil kimi də ingilis dili beynəlxalq dil olduğundan bütün dünyada tələb olunan əsas dildir. Gələcək həyatında bu dilə mükəmməl formada yiyələnməsi vacibdir ki, təhsil və iş həyatında ona çox kömək olsun. Asudə vaxtında çoxlu mütaliə edən balaca bu yaşda yaşından daha çox kitab oxuyub, mütaliə edib. Şahmat oyunu ilə də aktiv məşğul olur ki, bu da onun asudə vaxtının ən səmərəli zehni oyun məşğuliyyətidir. Hətta Ömər ötən il bilik və bacarıqlarına görə təşkil olunan bilik yarışından seçilməklə "Fərqlənmə" ilə mükafatlandırılıb. Atası Məmmədov Maarif Rüstəm oğlu ali təhsilli mühəndisdir. Ticarətçi kimi çalışaraq ailəsini dolandırır. Ömər üçün valideynləri dünyanın ən müqəddəs varlığı və sevimlisidirlər. Anası Mehriban Məmmədova evdar qadındır. Özündən iki yaş böyük olan bacısı Əsmər Məmmədova isə oxuduğu məktəbin 4-cü sinfin əlaçısıdır. Deyirlər əsərləri olmayan alim, meyvələri olmayan ağaca bənzəyir. Biz də kollektivimiz adından hansı sahədə və mərtəbədə olmağından asılı olmayaraq yüksək təhsil və can sağlığı diləyi ilə Ömərə uğurlar arzulayırıq. Ömür yolu xoşbəxtlik və firavanlıq içində daima parlasın.

# Əsmər Məmmədova





**"Elmin mənəvi siması onun kimin əlində olmasından asılıdır".**

***(Əbu Turxan)***

Elmi biliklər üst-üstə yığılarkən bəzən ən qiymətliləri altda qalır, onları tapıb yenidən üzə çıxarmaq üçün hərdən bütün sistemi dağıdıb yenidən qurmaq lazım gəlir. Bu sistemin dağılması üçünsə ən qiymətlilərinin dəyərini zamanında bilib, üzə çıxartmaq lazımdır. Əks halda dağılan sistemi yenidən qurmaq vaxt və dəyər itkisi ilə nəticələnəcək. Elə təhsil həyatına orta məktəbdən başlayan gənclərə də bu bilgini ilk təhsil illərindən mənimsətmək lazımdır ki, zamanın və biliyin dəyərini ən üst qatda olduğunu dərk etsin. Zamanla uyğunlaşaraq beşikdən qəbr evinə qədər öyrənməyin heç vaxt gec olmadığını dərk etsin. Bunu dərk edərək bu yaşından bilik-elm ağacından ikiəlli yapışan bacarıqlı şagirdlərimizdən biri də Əsmər Məmmədovadır. O, 2009 cu ildə iyunun 6-da Bakı şəhərində dünyaya göz açıb. Təhsil həyatına ilk qədəmlərini 2015-ci ildə Lökbatan qəsəbəsindəki 106 nömrəli məktəbdən başlayan Əsmər hazırda Qopu park şəhərciyində Ağdam 32 saylı tam orta məktəbdə təhsilini davam etdirir. Elə bu qədəmləri ilə sinifdə öz bacarıq və mənimsəmə qabiliyyətinə görə sinif yoldaşları arasında seçilənlərdən olub.Hazırda həmin məktəbin 4b sinifində təhsil alır. İbtidai sinif müxtəlif fənn sahələrinin ümumi tədrisindən ibarət olduğu üçün müsahibimizin də hələlik daha çox sevgisini riyaziyyat və həyat bilgisi fənnləri qazanıb. Onun sözlərinə görə həyat bilgisi ilə o ətraf aləmi daha yaxşı mənimsəyir, riyaziyyatla ilə zehni qabiliyyətinin daha yaxşı inkişaf etdirir. Bu səbəbdən ən sevimli müəllimi də məhz sevimli təbiəti ona sevdirən Məmmədova Radə müəllimdir. Atası ali təhsilli mühəndis, anası evdar xanım olan Əsmərin ən yaxın dostu isə 2-ci sinifdə oxuyan qardaşı Ömər də təhsilinə məsuliyyətlə yanaşmaqda və daim öyrənməkdə bacısına bənzəyib. Asudə vaxtını kitab oxumaqla keçirən Əsmər gələcəkdə həkim olmağı hədəfləyib. Zehni güc fiziki sağlamlıqla birgə vəhdət təşkil edir, biri digərini vacib edir. Odur ki, Əsmərin zehni gücü ilə böyüyəndə cəmiyyətin fiziki sağlamlığının qayğısına qalmaq istəyi onun bu kiçik yaşındaca dərkini aşkarlayır. Səbəbsiz deyil ki, bu balaca qızcığaz asudə vaxtını şahmat oynamaqla keçirir. Şahmatda da dərslərindəki kimi əlaçıdır.

Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir. Əsmər Məmmədova da jurnalımız adından ən səmimi diləyimiz məhz öz gələcək şəfalı əlləri və ağıllı fikirləri ilə cəmiyyətin parlaq simalarından olsun, uğur və yüksək bacarıqları ilə həmişə millətinin qürur mənbəyi olsun.



# Ağayeva Günel



**Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür.**

***Nəriman Nərimanov***

Təhsil hər bir ölkənin insanının inkişafı və dövlətinin gələcəyi üçün vacibdir. Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyət deyil, keyfiyyətə yönəlmelidir. Təhsil insanın bilik, bacarıq və səriştələr əldə etməsi sahəsində imkanlarını genişləndirir və cəmiyyəti formalaşdırır. Yüksək təhsilli və səriştəli insanlar biliklərin yaradılması, yayılması və effektiv tətbiqində mühüm rol oynayır. Məktəbdəki təhsil hər bir şagirdin həyatındakı ən vacib mərhələdir. Əgər bu mərhələ uğurla başa vurulsa, təməl sağlam olduğu üçün qazandığı biliklər cəmiyyət üçün faydalı olar. Elə jurnalımızın da əsas qayəsi buna xidmət edir. Müxtəlif təhsil ocaqlarında uğurlu göstəriciləri ilə seçilən nəaliyyət və fərqlənmələri ilə öncül olan şagirdləri tanımaq və tanıtdırmaq. Təhsil aldığı məktəbdəki biliyi ilə seçilən şagirdlərdən biri də Ağayeva Güneldir. Bu yazıda da onun tərcüməyi halı və maraq dairəsi yer alıb.

Ağayeva Günel Elşən qızı 1 iyun 2006-cü ildə Bakı şəhərində dünyaya göz açıb. O, 2012-ci ildə Biləsuvar rayonu Təyyar Əliyev adına Yuxarı Cürəli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda isə həmin məktəbin 7-ci sinfində təhsil almağda davam edir. Ötən yeddi il ərzində o, biliyi, məsuliyyəti və dərslərindəki aktivliyi ilə müəllimlərinin sevgisini qazanmış və nümunəvi şagird adını almağı bacarmışdır. Günel demək olar ki, bütün fənnləri sevir və sevərək də mənimsəyir. Onun üçün bütün dərslər xoşdur, ancaq ən çox diqqətini dəqiq və təbiət elmləri çəkir. Sevərək oxuduğu bu fənnlər Azərbaycan dili, fizika, kimya, biologiya və riyaziyyat, ən sevdiyi müəllimlər isə Ülvi, Vüsal, Ziyafət, Firuzə, Tünzalə, Vəfa və Əlyar adlı müəllimləridir. Rayon üzrə keçirilən müxtəlif bilik yarışlarında öncül yerlər tutmaqla müəyyən nəaliyyətlər əldə edən Günel gələcəkdə çox peşəkar və savadlı bir həkim kimi yetişmək istəyir. Asudə vaxtının da çox maraqlı bir məşğuliyyəti var ki, o da yenə oxumaqdan ibarətdir. Boş vaxt tapan kimi maraqlı kitablar oxuyur, əsərlər mütaliə edir. Bu da onun həm dünyagörüşünə, həm də nitq qabiliyyətinə müsbət təsir edir. Ona arzularının gerçəkləşməsində müəllimləri ilə yanaşı valideynləri də yardımçıdır. Və onlar çox istəyirlər ki, qızlarının gələcəyi parlaq olsun.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Ağayev Elşən Adıböyük oğlu hal-hazırda usta olaraq fəaliyyət göstərir. Halal zəhmətlə ailəsini dolandırır, övladlarının təhsili ilə maraqlanır. Anası Güllərova Rübabə Bəyzadə qızı evdar qadındır. Günü övladlarının qayğısı və yaxından maraqlanması ilə keçir. Bacısı Ağazadə Zeynəb Elşən qızı azyaşlıdır.

İnsan ancaq öyrənməklə ucalar, zirvələri fəth edər. Odur ki, jurnalımız adından biz Ağayeva Günelə həyat yolunda bol-bol uğurlar arzu edib elm, təhsil həyatında zehin açıqlığı diləyirik. İstəyimiz Günelin bütün arzularına çatması və həmişə ailəsinin, müəllimlərinin fəxri olmasıdır. Səsin daima ucalardan gəlsin.

# Əlinur Gözəlov





**Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək.**
***Əhvədi Marağayi***

Təhsil və savadlılıq - bilik qığılcımından tutuşan tonqala bənzəyir. Bu tonqala davamlı şəkildə bilik odunları atılmazsa, bir müddət sonra o, sönüb gedər. Savadlı cəmiyyətin qarantı - təhsilini sadəcə məktəb və universitetlərin ümidinə qoymayan, hər yaşda oxumağı özünə vərdiş edən fərdlərdir. Cəmiyyətin xilası daim oxuyan, ömür boyu təhsili özünə prinsip edən kamil insanlardadır. Ömür boyu davamlı şəkildə oxumaq ruhumuzu və dünya görüşümüzü zənginləşdirir. Bildikləri ilə kifayətlənməyən, daim yeni biliklər öyrənməyə çalışan və biliyini gücləndirən şagirdlərimizdən biri də Gözəlov Əlinurdur.

Gözəlov Əlinur Azər oğlu 9 iyun 2008-ci ildə Biləsuvar rayonunda dünyaya gəlib. O, 2014-cü ildə Biləsuvar rayonu Oktay Babayev adına Aşağı Cürəli kəndi tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda həmin məktəbin 5a sinfində təhsil alır. Əlinur məktəbə qədəm qoyduğu ilk gündən müəllimlərinin və sinif yoldaşlarının sevgisini qazanıb. O, qeyd edib ki, bütün müəllimlərini çox sevir və hörmət edir, lakin onun üçün xüsusi yeri olan müəllim Esmira müəllimdir, ən sevdiyi dərslər isə riyaziyyat və tarixdir. O, kitab oxumağı və mütaliə etməyi çox sevir. Çünki mütaliə nitqi və dünyagörüşü zənginləşdirir. Boş vaxtlarında isə şahmat və futbol oynamaqla məşğuldur. Çünki zehni və fiziki məşğələ bir arada olsa yaxşıdır. Əlinur da buna əməl edir ki, gələcəkdə daha yetkin və püxtələşmiş olsun.

Əlinurun ailəsi 4 nəfərdən ibarətdir. Atası Gözəlov Azər ticarətlə məşğuldur. Anası Gözəlova Səidə evdar qadındır. Riyaziyyat fənnini çox sevir və övladlarına öyrətməkdə yardımçı olur. Bacısı Gözəlova Bahar 2-ci sinifdə oxuyur. O da dərslərini yaxşı oxuyur və qardaşı ona yardımçıdır.

Gözəlov Əlinur gələcəkdə polis olub, vətəninə, elinə savadlı bir şəxs kimi layiqli xidmət etmək istəyir. Redaksiyamız adından biz də ona gələcək həyatında, peşəsində uğurlarının bol olmasını arzulayırıq.Valideynlərinin hər zaman fəxri olmasını diləyirik.Niyyət elm ilə əməl arasında bir vasitədir. Ümid edək ki, niyyətimiz düşərli, istəklərimiz çin olar.



# Məlikov Amin





**Dünyada nə qədər kitab var belə,**
**Çalışıb əlləşib gətirdim ələ.**
**Oxudum, oxudum, sonrada vardım,**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
***Nizami Gəncəvi***

Elm neçə ərslər ərzində tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur. belə bir deyim var ki, müəllifi Əbu Turxandır. " Alimlər səhv etməkdən qorxsa, elm inkişaf etməz". Yəni alimlər elm yolundakı axtarışlara başlarkən mütləq ki, səhvlər də edə bilər. Çünki hər bir məlum fakt öncədən neçə yalnış faktların aşkarlanması əsasında üzə çıxıb. Yəni yalnışlıq doğruları gec-tez aşkarlamaq üçündür. "Əslində elm qüsursuzdur, ancaq alimlər həmişə səhv edirlər" deyimi də bunu bir başqa tərəfdən sübut edir. Elm və texnika əsrində yaşadığımız üçün hər zaman oxumalı, yeni biliklər əldə etməli və çoxlu mütaliə etməliyik. Axı elm, xırda-xırda, zərrə-zərrə toplanır. Necəki atalarımız demişdir: "Dama-dama göl olar". Hər zaman elm öyrənməyə, öyrəndiklərini mənimsəməyə çalışan və mütaliə edən istedadlı şagirdlərimizdən biri də Məlikov Amindir. Bu yazı onun haqqındadır.

Məlikov Amin Dilavər oğlu 20 may 2004-cü ildə Biləsuvar rayonunda dünyaya göz açıb. O, 2010-cu ildə X.Qafarov adına İsmətli kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda isə həmin məktəbin 9-cu sinifində oxuyur. Amin biliyi, istedadı və tərbiyəsi ilə seçilən nümunəvi şagirdlərdən biri kimi müəllimlərinin sevgisini qazanıb. Ən sevdiyi dərs tarix dərsidir. Keçmişini bilməyən gələcəyini qura bilməz deyiblər. O da bu şüarla hərəkət edib tarix fənninə dərindən yiyələnmək istəyir. Amin, bütün müəllimlərini çox sevdiyini qeyd edib. Onun uğur və nəaliyyətlərinə sınaq imtahanlarında qazandığı yüksək nəticələr və əlaçı olmasını nümunə göstərmək olar ki, bu özü də böyük əzm və mübarizə tələb edir. Boş vaxtlarında maraqlı kitablar oxumağı və mütaliə etməyi sevir. Futbolu da sevir və onunla məşğul olur. Çünki bu idman növü onun diqqətini çox cəlb edir.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Məlikov Dilavər Məlik oğlu hazırda sürücü olaraq işləyir. Anası Məlikova Könül Babulla qızı evdar qadındır. Qardaşı Məlikov İbrahim Dilavər oğlu Bakı şəhərində H.Z.Tağıyev adına 123 saylı məktəbdə 7-ci sinif şagirdidir.

Məlikov Aminin ən böyük arzusu gələcəkdə polis olmaqdı, vətəninə-xalqına vicdanlı hüquq işçisi kimi xidmət etməkdir. Yaxşı niyyət heç də həmişə yaxşılığa gətirmir. Bunun üçün həm də bilik və qabiliyyət lazımdır. Çünki arzulamaq hələ arzuya çatmaq demək deyil, əsas qarşına məqsəd qoyub ona doğru addımlamaqdır. Məlikov Amin də məqsədinə doğru addımlamaqda israrlı və istəklidir.

Biz də jurnalımız adından Aminin arzusuna çatmasını və uğurlarının bol olmasını arzulayırıq. Qoy heç bir zaman məqsədinə doğru atdığı addımlar səngiməsin və büdrəməsin. Əksinə iti addımlarla gələcəyə doğru düzgün yol alıb arzularını gerçəkləşdirməklə valideynlərini və müəllimlərini sevindirsin. Hər zaman onların fəxri olsun.

# Məlikov İbrahim





**Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nailyyətlərimizə görə məktəbə, müəllimə borcludur.**

*Heydər Əliyev*

Tələbələrinə elm arzusu aşılamayan bir müəllim soyuq dəmiri döyən dəmirçi kimidir deyimi hər zaman öz gerçək dəyəri ilə seçilən bir ifadədir. İnsan bu dünyaya heç nəyə sahib olmadan gəlir, amma çox şeyə sahiblənəcək bir dünyanın sakini olaraq yaşayır. Unutmaq lazım deyil ki, insanı şəxsiyyət, alim, filosof, bilgi sahibi edən də onun istedad və illər uzunu əziyyət çəkərək öyrəndiyi elm və mərifətidir. Bunu isə insan müəyyən yaş və mərhələyə qədər ətrafdan, mühütdən, ailədən, cəmiyyətdən öyrənir, əxz edir. Əsas rol oynayan şəxs, məkan isə məktəb və müəllimləridir. İnsan ilk dəfə yazmaq və oxumaq, ardınca müxtəlif elmlərdən agah olmaq məsuliyyəti müəllimlərinin üzərinə düşür. Onlara ilk çığır yolun açır və həyat yoluna istiqamət verir. Odur ki, bir şəxsin formalaşmasında müstəsna rolu olan müəllimlərin xidməti və məsuliyyəti böyükdür. Dərslərini layiqincə keçərsə rəhmət, keçməzsə nifrət qazanar. Eləcə də valideyn və digər tədris ocaqları, pedaqoqlar da bu məsələdə məsuliyyətli olmalı və vicdanla fəaliyyətini yerinə yetirməlidir. Yəni hər kəs bir şəxsin formalaşmasında yardımçı olarsa o cəmiyyət az qüsurlu olar. Müəllimlər yanaşı hər birimiz elm yolunda nəailyyətlər əldə etməyə və uşaqlarımıza da bu sahədə yardım etməyə çalışmalı, onları uğurlarına görə qiymətləndirməliyik. Söz gəlişi deməyiblər ki, güclü ağıllar, dərin zəkalar insanları birliyə və bütövlüyə xidmətə səsləyir. Çünki yalniz təhsilli, bilikli, istedadlı və bacarıqlı bir nəsil uğur və nəaliyyət qazana bilər. Belə uğurları və nəaliyyətləri ilə fərqlənən şagirdlərimizdən biri də Məlikov İbrahimdir.

Məlikov İbrahim Dilavər oğlu 5 may 2006-cı ildə Rusiyada dünyaya göz açıb. O, yad bir ölkədə doğulsa da ancaq təhsilini doğma ölkəsində almağa başlayıb. 2012-ci ildə ilk təhsil həyatına başlayan İbrahim Biləsuvar rayonun X.Qafarov adına İsmətli kəndi tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda isə H.Z.Tağıyev adına 123 saylı məktəbin 7-ci sinifində təhsilini davam etdirir. İbrahim məktəbdə dərslərindəki uğurlarına və tərbiyəsinə görə seçilən nümunəvi şagirdlərdən biridir. O, məktəbdə keçirilən imtahanlarda yüksək nəticələr göstərdiyi üçün valideynləri və müəllimləri onunla fəxr edirlər. Ən sevdiyi dərs riyaziyyatdır. İbrahim bütün müəllimlərini sevdiyini və onlara hörmət bəslədiyini vurğulayıb. Boş vaxtlarında kitab oxumağı və idmanla məşğul olmağı sevir. Ən sevdiyi idman növü isə futboldur. O, gələcəkdə hərbiçi olmaq istəyir. Çünki O, güclü olmağı və vətənini sevməyi qarşısına əsas məqsəd qoyaraq bu şərəfli peşəni özünə hədəf seçib.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Məlikov Dilavər Həmid oğlu hal-hazırda sürücü olaraq fəaliyyət göstərir. Anası Məlikov Könül Babulla qızı evdar qadındır. Qardaşı Məlikov Amin Dilavər oğlu X.Qafarov adına İsmətli kənd tam orta məktəbinin 9-cu sinifində oxuyur.

Xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadirdir deyib filosoflarımız. Biz də bu devizlə yazını sonlandırıb redaksiyamız adından İbrahimə həyat yolunda daim uğurlarının bol olmasını arzulayır , müəllim və valideynlərinin hər zaman qürur mənbəyi olmasını diləyirik. Öyrəndiyi elm və bilgilər ona həmişə yardımçı və silahdaş olsun.



# Hüseynli Çilənay





Əmr etdi, verildi fərman,
Alimdir gözümdə ən əziz insan.
Elmlə, hünərlə! Başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
Nizami Gəncəvi

Elm və texnologiyanın inkişaf etdiyi bir dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Biz gərək elmi biliklərimizi daha dərindən mənimsəyək ,öz peşəmizin mütəxəsisinə çevrilək ki, zamanın tələbi qarşısında diz çökməyək. Elm elə bir xəzinədir ki, nə qədər vaxt sərf etsən bir o qədər artar. "Elmi biliklər üst-üstə yığılarkən bəzən ən qiymətliləri altda qalır, onları tapıb yenidən üzə çıxarmaq üçün hərdən bütün sistemi dağıdıb yenidən qurmaq lazımdır" demişdir məşhur filosof Əbu Turxan. Çünki öyrəndikcə kamilləşən insan əslində çox məlumatı bilmədiyinin, daha çox öyrənməyinə ehtiyac olduğunun fərqində olur.

Elmi biliklərini hər zaman yeniləyən şagirdlərimizdən biri də Hüseynli Çilənaydır. Çilənay oxumaqda, öyrənməkdə israrlı, gələcəyini bu istiqamət üzrə qurmaqda maraqlıdır. Bilir ki, yaşadığımız 21-ci əsr elm və texnologiya əsri, tələb olunan sahələr, yenilənən bütün sistemlər texnoloji imkanların yaratdığı fürsətlər əsasında işləyir, fəaliyyət göstərir. Tələbə uyğunlaşmadığın təqdirdə geriləməyin labüd, fərdi inkişafın isə mümkünsüzdür. Hər zaman elmin yeniliklərinə doğru deyib yol olan Çilənay Hüseynlinin qısa tərcüməyi halına bu yazıda işıq salıb oxucuları ilə tanışlıq imkanı yaradırıq.

Hüseynli Çilənay Saleh qızı 21 avqust 2004-cü ildə Biləsuvar rayonu Yuxarı Cürəli kəndində anadan olub. O, 2010-cu ildə Biləsuvar rayonu Təyyar Əliyev adına Yuxarı Cürəli kənd tam orta məktəbinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 9 sinifində oxumaqla təhsilinə davam edir. Ən sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat, fizika və kimyadır. Dəqiq elmlərə və doğma dilinə sevgisi həm də onu tədris edən müəllimlərinin savadı, dünyagörüşü ilə, yəni fənni şagirdlərə sevdirmək qabiliyyəti ilə bağlıdır. Əslində Çilənay bütün müəllimlərini çox sevir və hər birinin onun qəlbində xüsusi yeri var deyə düşünür. Çünki hər biri bir elmin fədaisi, bir fənnin təbliğatçısı, maarifçisidir. O, həm də müəllimlərinin sevgisi qazanmış ağıllı, çalışqan və tərbiyəli şagirdlərdən biridir. Səbəbsiz deyil ki, bu yaşına qədər təhsil həyatında bir sıra uğurlara imza atıb, nəaliyyətlər əldə edib. Bu uğur və nəaliyyətlərinə təhsil həyatı boyunca əlaçı olmasını və şeir müsabiqələrində mütəmadi çıxış etməsini nümunə göstərmək olar. Çünki gözəl nitq və intonasiya qabiliyyəti olan Çilənay boş vaxtlarında şeir kitabları oxumağı və musiqiyə qulaq asmağı xoşlayır. Onun poeziya və musiqi duyumu yüksəkdir. Mənəvi dünyası bu iki incəsənətdən qidalanır. Onun valideynləri də ziyalı, təhsilə önəm verən şəxslər olaraq hər zaman Çilənayı dəstəkləyir, təhsil almağa, oxumağa olan həvəsini stimullaşdırırlar.

Çilənayın ailəsi 4 nəfərdən ibarətdir. Atası Hüseynov Saleh İbiş oğlu Cəlilabad rayonunda şərab zavodunda çalışır. Anası Hüseynova Pərvanə Əjdər qızı Biləsuvar rayonunda müəllim olaraq çalışır. Qardaşı Hüseynli Nurəli Saleh oğlu Yuxarı Cürəli kənd tam orta məktəbində 4-cü sinif şagirdidir.

Çilənayın gələcəyi ilə bağlı böyük arzuları var. Ancaq bu arzuların içərisində biri öz şərəf və missiyasının müqəddəsliyinə görə seçilir. Yəni gələcəkdə bildiklərini özündən sonrakı nəsilə ürəklə ötürən savadlı, vicdanlı və peşəkar müəllim kimi yetişmək istəyidir. Çünki öyrənməyi sevən, öyrətməyi də sevər. Bu onun həyat devizidir. Hər iki istək bir-biri ilə uzlaşır.

Biz də jurnalımızın kollektivi adından Çilənaya gələcək həyatında uğurlar arzu edirik və bir ömür yolun açıq olsun deyirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olasan. Uğurlarınla sevənlərini, ailəni sevindirəsən.

# Rüstəmli Zəhra









**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnir"**

***Frensis Bekon***

Təhsil bilik, vərdiş və məlumatların gənc nəslə ötürülməsi və öyrənilməsi prosesidir. Savadsız cəmiyyət heç kimə lazım deyil. Hazırda inkişaf etmiş ölkələr savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləyişlər əldə edib və edir. Əsas insan kapitalına olan yatırımdır, insan beyninin inkişafına yönələn inkişaf mexanizmidir. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxalq layihələrdə Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Məktəblərimiz müasir avadanlıqlarla və yüksək standartlara cavab verən texnika ilə təchiz olunmasının da müsbət təsirləri çoxdur. İllər öncə heç bu standartlara da məktəblərimiz möhtac durumda idilər. Əksəriyyəti qəzalı və bərbad vəziyyətdə olan tikililərdə fəaliyyət göstərir, keyfiyyətli tədris üzünə həsrət idi. İndi isə məktəb binalarının yenilənməsində irəliləyiş varsa da keyfiyyətinin artırılması və siteminin gücləndirilməsinə böyük ehtiyac var. Çünki savadlı yetirmələr, savadlı müəllimlərin məhsulu olur. Təhsili özünə ana xətt olaraq seçən jurnalın da əsas qayəsi buna xidmət etməkdədir. Bu vasitələrdən hər zaman istifadə edərək bilik və bacarıqlarını artıran şagirdlərimizdən biri də Rüstəmli Zəhradır. Növbəti yazı onun haqqındadır.

Rüstəmli Zəhra Mübariz qızı 12 noyabr 2004-cü ildə Sabirabad rayonunda dünyaya göz açıb. O, 2010-cu ildə Nəriman Nərimanov adına 2 saylı məktəbə qədəm qoymuşdur. Hal-hazırda isə həmin məktəbin 8-ci sinfində təhsil almağda davam edir. Biliyi, məsuliyyəti və dərslərindəki aktivliyi ilə müəllimlərinin sevgisini qazanan Zəhra gələcəyə ümidlə baxır. Onun uğur və nəaliyyətləri dedikdə savadı və biliyi ilə seçilən nümunəvi şagird olması ağıla gəlir və dərslərindəki uğurlu fəaliyyətinə görə əlaçıdır. Ən sevdiyi dərs riyaziyyat, ən sevdiyi müəllimlər isə Bulqeyis müəllim və Kəmalə müəllimdir. O, əlavə olaraq digər müəllimlərini çox sevdiyini və dərslərindəki uğurları üçün onlara borclu olduğunu bildirib. Zəhra gələcəkdə çox bacarıqlı bir həkim olmaq istəyir. Hətta bir qədər irəli gedərək cərrah olmağını da qətiləşdirib.

Zəhranın ailəsi 3 nəfərdən ibarətdir. Atası Rüstəmov Mübariz satıcı olaraq fəaliyyət göstərir. Anası Rüstəmli Xanımana evdar qadındır. Evin yeganə övladı olaraq gələcəkdə oxuyub təhsil alıb valideynlərini sevindirmək və onların qayğısına qalmaq istəyir.

Biz Rüstəmli Zəhraya həyat yolunda bol-bol uğurlar arzu edir və istədiyi bütün arzularına çatmasını diləyirik. Bir ömür valideynlərinin və müəllimlərinin fəxri olsun. Səsi-sədası yüksək kürsülərdən gəlsin. Elm, təhsil yolu ona ancaq uğur və firəvanlıq gətirsin.



# Süleyman Sadıqzada



**Yoxdur bilik kimi bir abi-həyat,**
**Ancaq bilik verər insana nicat.**

***Əvhədi Marağayi***

Tənliklərin gözəlliyi onların eksperimentə uyğun gəlməsindən daha önəmlidir. Təhsil almaq da onu oxuyub dərk eləmək qədər müəyyən zaman intervalı arasında vaxt tələb edir. Əslində nə oxumağın, nə təhsilin zamanı və müddətinin olması mümkünsüzdür. Sadəcə olumdan ölümə qədər oxumaq və öyrənmək lazımdır. Çünki təhsil cəmiyyətin həyatında prioritet sahə olmaqla, insanın inkişafında və formalaşmasında mühüm rol oynayır. O yalnız bilik və bacarıqlar əldə etmək üçün deyil, təhsil alanın və bütövlükdə insanın inkişafını təmin etmək üçün lazımdır. Buna görə də təhsilimizi gücləndirmək üçün daim oxumalı, çalışmalı və mütaliə etməli və gələcəyin qurucuları olan şagirdlərə bu yolda yardım etməliyik. Şagirdlərimiz bilik və bacarıqların daşıyıcısı kimi nəzəri biliklər qazanıb inkişaf etməklə yanaşı aldığı bilikləri təcrübədə, həyatda tətbiq etməyi öyrənməli, öz həyatını müstəqil qurmağı bacarmalıdırlar. Təhsilini gücləndirmək üçün daim oxuyan və mütaliə edən şagirdlərimizdən biri Sadıqzadə Süleymandır. Jurnalın bu yazısı onun haqqındadır.

Sadıqzadə Süleyman Famil oğlu 4 iyun 2008-ci ildə Biləsuvar rayonunda anadan olub. O, 2013-cü ildə Biləsuvar rayonu N.Sultanov adına Dövrüşlü kəndi tam orta məktəbinə qədəm qoymuşdur. Hal-hazırda isə həmin məktəbin 5-ci sinfində təhsil almağda davam edir. O da biliyi, məsuliyyəti və dərslərindəki aktivliyi ilə müəllimlərinin sevgisini qazanaraq gələcəyinə ümid bəslənilən şagirdlərdəndir. Onun uğur və nəaliyyətləri dedikdə savadı və biliyi ilə seçilən nümunəvi şagird olması ağıla gəlir. Ən sevdiyi dərslər Azərbaycan dili, riyaziyyat və ingilis dili, ən sevdiyi müəllimlər isə Hidayət müəllim, İlqar müəllim və Tutayi müəllimdir. O, əlavə olaraq digər müəllimlərini çox sevdiyini və dərslərindəki uğurları üçün onlara borclu olduğunu bildirib. Boş zamanlarında isə tərcüməyi halında əsas məşğuliyyət kimi sorğusuna işlədiyini qeyd edib. İndidən zəhmətə və əməyə alışan Süleyman baxçada boş vaxtlarında məşğul olur, özünə ilkin təcrübə bazası yığır. Sadə və zəhmətkeş ailənin yetirməsi olan Süleymana valideynləri də ümid bəsləyirlər. Onlar ona dəstək və arzularında həmrəydirlər.

Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Sadıqov Famil fərdi təsərrüfatçılıqla məşğuldur, orta təhsillidir. Anası Sultanova Gülnarə də orta təhsilli evdar qadındır. Sadıqzadə Yavər adlı qardaşı isə 7-ci sinifdə oxuyur.

Sadıqzadə Süleyman gələcəkdə ədalətli bir polis olmaq istəyir. Redaksiya kollektivi adından ona bu seçim və həyatda uğurlar arzu edir, valideynlərinin və müəllimlərinin fəxri olmasını diləyirik. Xoş sədan, uğurların daim eşidilsin.

# ŞAMİYEV ŞAHVERDİ







Dahi bəstəkar Üzeyir Hacıbəyov tarın texniki ifaçılıq imkanlarına, akustik səslənmə xüsusiyyətlərinə istinad edərək yazırdı:

"Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür".

Əsası Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş notlu ifaçılıq məktəbi tarın texniki və bədii imkanlarını daha da artırmışdır.

Miladdan 2000 il öncə yaranmış tar müasir zəmanəmizə kimi gəlib çatan milli musiqi alətlərimizdən biridir. Hazırda tar müasir insanın ən sevimli musiqi alətlərindən biri kimi istifadə olunmaqdadır. Azərbaycanda yüzlərlə tanınmış tarzən olub və onların minlərlə davamçıları yetişib və yetişməkdədir.

Haqqında məqalə yazdığımız Şamiyev Şahverdi tarın həvəskarıdır. Bu peşənin ustası olmaq istəyən Şahverdi hələ bu sənətə yenicə qədəm qoyub. Jurnalımızın əsas qayəsi təhsillə bağlı olduğundan savadlı və istedadlı şagirdlərdən biri olan Şamiyev Şahverdi haqqında da yazmağı özümüzə borc bildik. Musiqi özü yüksək bilgi və savad tələb edir, əks halda bundan məhrum olmuş musiqiçi peşəkarlıqdan və böyük nüfuzdan danışa bilməz.

Şamiyev Şahverdi Ətraf oğlu 24 may 2005-ci ildə Bakı şəhərinin Xətai rayonunda anadan olub. 2011-ci ildə məktəbə yollanan Şahverdi Abşeron rayon Məhəmməd kənd tam orta məktəbində, 2016-cı tədris ilindən isə Fizuli rayon 1 saylı tam orta məktəbində təhsilini davam etməyə başlayıb. O, artıq 8-ci sinif şagirdidir. Çox tərbiyəli və nümunəvi şagirtdir. Ən çox ana dili və riyaziyyat fənlərinə marağı olan Şahverdinin ən sevimli müəllimləri də elə bu fənnləri tədris edən Firuzə Alızadə və Şahnaz Almuradovadır.

Şahverdi həm də musiqi ilə aktiv məşğul olur. Musiqiyə olan böyük marağını hiss edən valideynləri onu musiqi məktəbinə aparıblar. 2016-cı tədris ilində Şahverdi imtahanı uğurla keçərək Fizuli rayon Şəkərcik kənd Uşaq Musiqi məktəbinin Tar Simli alətləri şöbəsinə daxil olub. Artıq burada o, 3-cü sinif şagirdidir. Şahverdi tarın incəliklərini Mübariz və Hamlet müəllimdən öyrənir. O, müəlimlərindən çox razıdır. Elə özü də gələcəkdə tar müəllimi olmaq istəyir. Bu ixtisasa olan marağı onu gələcəkdə ən yaxşı tarzən olmağa da həvəsləndirir. Şahverdi bir çox əsərləri sərbəst ifa etməyi müəllimlərindən öyrənib. O, Fikrət Əmirovun "Quşlar", Üzeyir Hacıbəyovun "Döyüşçülər Marşı" əsərlərini və "Bayatı-Şiraz", "Rast", "Mahuri-Hindi" muğamlarını mahir ifa etməyi bacarır. Müsahibəmiz zamanı bizim üçün də ifa etdiyi muğamdan anladıq ki, onun gələcəyi, həyatı musiqi ilə yoğrulub, musiqi ilə notlanıb.

Valideynləri Şahverdiylə fəxr edirlər. Onun hər bir uğuru ailə üzvlərini sevindirir. Ələlxüsus da nənəsi Zinyət xanımı. O, nəvəsinin ifa etdiyi hər bir musiqi parçasını seve-sevə dinləyir.

Şahverdinin ailəsi 6 nəfərdən ibarətdir. Nənəsi Zinyət xanım, atası Şamıyev Ətraf çilingər işləyir. Anası Alıyeva Aynur evdar xanımdır.

Şahverdinin 2 bacısı var. Özündən 2 yaş balaca bacısı Aytac 6-cı sinifdə oxuyur. Evlərinin sonbeşiyi olan Gülay isə hələ hazırlığa gedir.



# İBRAHİMLİ NƏZRİN





**"Kim ki, elm üyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir"**

**(Nəvai)**

Belə bir deyim var. "Elm öyrənməkdə problem onun xüsusiyyətlərinin, qayda və qanunlarının bəzən çətin həzm olunmasında, başa düşülməməsindədir. Ona görə də öyrənmək öyrənəndən daha çox öyrədənin ustalığından asılıdır". Bəli, öyrənmək məsələsi şagirddən, tələbədən daha çox, öyrədənin, müəllimin peşəkarlığından asılıdır. Əgər müəllim təhsili, tədrisi necə mənimsədə bilsə, şagird də elə o cür qavrayar, o cür mənimsəyər.

İbrahimli Nəzrin İbrahim qızı 31 oktyabr 2008-ci ilə Bakı şəhərində dünyaya gəlib. Məktəb həyatına 2014-cü ildən start verən Nəzrin Hazırda 1 saylı Füzuli rayon tam orta məktəbinin 5a sinifində təhsil alır. Dərslərinə çox fəal yanaşan qoçaq Nəzrin yaxşı oxuyur, həmişə hazırlıqlı olur. İlk dəfə qələm tutub "Ana" "Vətən" kəlməsini yazmağı Nəzrin sevimli müəllimi Elnarə Mehbalıyevadan öyrənib. Nəzrin deyir ki, Elnarə müəllim onun xatirəsində daim xoş anlarla qalıb, xoş xatirələrlə anılacaq. Axı ilk müəllim unudulmur. İbtidai sinif müəllimləri adətən 4 ildən bir şagirdləri yeniləsə də, ancaq onların da daim xatırladığı sinif, daim fərqləndirdiyi şagirdləri olur. Nəzrin ümid edir ki, O da müəlliminin xoş xatırladığı şagirdlərindən olacaq. Nəzrin hazırda ona dərs deyən müəllimlərini də unutmadı. O, qeyd etdi ki, artıq 5-ci sinifdə oxuduğu üçün fənlərin sayında artım olduğuna görə ona dərs deyən müəllimlərin sayı da artıb. İngilis dili müəllimi Şəhla, riyaziyyat müəllimi Firuzə və həyat bilgisi müəllimi Sevinc ona təhsil verən digər sevimli müəllimlərindəndir. Elə bu jurnal vasitəsi ilə müəllimlərinə olan sevgi və təşəkkürünü çatdıran Nəzrin təhsil həyatındakı uğurları ilə onları sevindirəcəyinə söz verdi.

Nəzrin həm də musiqi ilə məşğuldur. O, Füzuli rayon Şəkərcik kənd Uşaq Musiqi məktəbinin fortepiano şöbəsinin 4-cü sinif şagirdidir. Musiqi məktəbində də fəallıq nümayiş etdirən Nəzrin 2017-2018-ci tədris ilində keçirilən "Fortopiano ifaçılığı" adlı yekun konsertdə uğurlu çıxışına görə "Fəxri Fərmanla" təltif olunmuşdur.

Böyüyəndə polis olmaq istəyən Nəzrinin bu arzusu valideynlərinin üreyincə deyil. Çünki valideynləri onu fortepiano müəllimi kimi görmək arzusundadılar. Çünki istedad hansı sahə üzrədirsə, gələcək həyat peşəsi də o istiqamət üzrə olmalıdır. Həm özünə, həm ətrafına faydalı olması üçün.

Nəzrin asudə vaxtlarını da zəngin keçirir. Mütaliə edir, fortepianoda musiqi ifa edir və televiziyaya tamaşa edir.

İki qardaşın bir bacısı olan Nəzrinin ailəsi 5 nəfərdən ibarətdir.

Atası İbrahimov İbrahim 46 yaşındadır, anası İbrahimova Amalyanın 41 yaşı var.

Böyük qardaşı İbrahimli Mirşahin 21 yaşı var. Marketdə çalışır. Evin ortancılı İbrahimli Eltun, 19 yaşı var tələbədir.

Nəzrinə dərslərində uğurlar arzulayırıq! Ümidvarıq ki, gələcəkdə məhşur musiqiçi olaraq həm adını, həm ölkəsinin adını dünya miqyasında tanıtdıracaq. Bu isə həm yüksək dünyəvi və peşəkar musiqi təhsili ilə ərsəyə gələn bir nəaliyyətdir.

# Əli Məmmədli



**Nəzəriyyə elmin ruhu, təcrübə - bədənidir. Nəzəriyyəsiz fikir dənizində və faktın meşəsində asanlıqla azmaq olar.**
**(D.E. Mendeleyev)**

Elmi tərəqqinin geniş vüsət etdiyi bir dövrdə təhsil ən vacib amildir. Çünki insan ancaq öyrənməklə ucalır, öyrətməklə müdrikləşir. Təhsillə insan cəmiyyətdə öz yerin tutub, öz töhfəsin verə bilər. Çünki insan ruhunun sirrləri təbiət elmlərinin metodları ilə açılır. Bir qayda olaraq da elm dedikdə daha çox dəqiq və təbiət elmlər nəzərdə tutulur. Bütün bunlar isə insana təhsillə öyrədilir, tədrislə mənimsədilir.Təhsil həyatına isə ilk addımlar məktəbdən atılır, ardınca ali təhsil ocaqları və həyat adlı mübarizə meydanında püxtələşir, yetkinləşir. Təsadüfi kəşfləri istənilən insan deyil, yalnız hazırlığı olan şəxslər edir. Məktəb yalnız elm ocağı deyil, həm də tərbiyə ocağıdır. Məktəbdə öyrədilən təhsil və tərbiyə uşaqlarımızı gələcək uğurlara aparan ilk addımdır. Məktəblərimizdə elmi, biliyi və tərbiyəsi ilə seçilən nümunəvi şagirdlərimizdən biri də Məmmədli Əlidir. Jurnalımızın bu səhifəsində məhz Əli haqqında söz açacağıq.

Məmmədli Əli Zakir oğlu 5 avqust 2006-cı ildə Sabirabad rayonu Şıxsalahlı kəndində dünyaya gəlib. O, 2012-ci ildə Bakı şəhərində yerləşən Ağdam rayonu 88 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Əli hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Əli bilikli, məsuliyyətli və çalışqan şagirdlərdən biridir. Ən çox sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat və fizika fənləridir. Məktəbə qədəm qoyduğu ilk gündən müəllimlərinin sevgisini qazanmışdır. Ən sevdiyi müəllimlər- İsa müəllim, Aidə müəllim, Şəlalə müəllim, Sevda müəllim və Maral müəllimdir. Əli sinif əlaçısı olduğu üçün 2 dəfə tərifnamə ilə təltif olunmuşdur. Onun ən böyük arzusu gələcəkdə Fövqəladə Hallar Nazirliyində (FHN) işləməkdir.

Ailəsi 3 nəfərdən ibarətdir. Atası Məmmədov Zakir yaşayış binasında təhlükəsizlik xidmətində nəzarətçi olaraq işləyir. Anası Məmmədova Mətanət evdar xanımdır.

Biz də redaksiyamız adından Məmmədli Əliyə həyat yolunda uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin.



# ZƏHRA MƏHƏRRƏMLİ





**Elmin dəyirmanına su tökənlər bəzən bu dəyirmanın kimin üçün üyütdüyünün fərqində olmurlar.**
**(Əbu Turxan)**

“Uğur bir bağlı qapıdır və bu qapının açarı da elə öz əlimizdədir”. Burada müəllif biliyi, təhsili nəzərdə tutub desək yanılmarıq. Çünki insan istənilən mərhələyə elə biliyin sayəsində çatır.İstənilən peşədən asılı olmayaraq insan öz biliyini nümayiş etdirməyin sayəsində tanınır, məhşurlaşır. Biliksiz insan heç vaxt nə həkim, nə müəllim, nə jurnalist və digər peşə adamları ola bilməz. Elə Zəhra da uğur qapısının açarının məhz elmdə olduğunu dərk edir.

Məhərrəmli Zəhra İlqar qızı 31 iyul 2010-cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 2016-cı ildə H.Z.Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. Hazırda 3-cü sinifdə təhsil alır. Elmin, təhsilin hələ ilk pillələrində olan Zəhra bala elə indidən təhsilə çox böyük önəm verən şagirdlərdəndir. O, ona dərs deyən ilk müəllimini də çox sevdiyini bildirdi. Hətta Zəhranın şəkili məktəbin foesində yerləşən “Məktəbin Əlaçılar”ı üçün ayrılmış guşədə asılıb. Kifayət müəllimə hər həftə sonu əla qiymətlər alan şagirdlərini həvəsləndirmək məqsədi ilə medal təqdim edir. Bu artıq ənənə halını aldığı üçün Zəhra hər dərsi tam hazır edir ki, həftənin qalibi olsun. Beləcə O, hər həftənin qalibi olmaqla liderliyini qoruyur.

Hələlik Zəhranın uğur və nəaliyyətlərini summativlərdən aldığı əla qiymətlər olduğunu qeyd etdi. Böyüyəndə həkim olmaq istəyən Zəhra arzu edir ki, Tibb Universitetinə daxil olsun və gələcəkdə ən savadlı bir həkim olub, sağlamlığa ehtiyac duyan insanlara şəfa verməyi əsirgəməsin.

Zəhra özündən bir yaş balaca bacısı Aytənin də dərslərinə yardım edir. Aytən də bacısı kimi əlaçıdır. Boş vaxtlarında hər iki bacı maraqlı kitablar oxuyurlar. Onlar çalışırlar ki, valideynlərinə daim başucalığı gətirsinlər.

Atası Məhərrəmov İlqar heç bir yerdə işləmir, anası Məhərrəmova Pərvanə evdar xanımdır. Bacısı Aytən isə 2-ci sinifdə oxuyur.

Zəhraya dərslərində uğurlar diləyirik! Ümid edirik ki, elm-təhsil yolunu əsas tutaraq məktəbi bitirdikdən sonra da onun arxasınca gedəcək.

# CAHANGİROV ÖMƏR





***"İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır"***
***(Məmməd Səid Ordubadi)***

Bu gün Azərbaycan təhsilinin inkişafına ehtiyac olduğu qədər əvvəlki illər qədər də bərbad və şəraitsiz deyil. Təhsil sisiteminin inkişafı birbaşa dövlətin nəzarəti altında olmalıdır ki, tamamilə gözdən-könüldən uzaq düşmüş vəziyyət alınmasın. Məktəblər tam təmirli, son texnologiya ilə təchiz olunmuş sinif otaqları, keyfiyyətli dərsliklər və savadlı müəllim kollektivi ilə təchiz olunması əsas şərtlərdəndir. Müasir şagirdin əlində oxumamağa bir əsas olmamalıdır. Çünki yuxarıda sadalanan hər bir şərait gəncliyin savadlı və uğurlu olmasına gətirib çıxardır ki, bu fərqi artıq hiss etməkdəyik. Danılmaz faktdır ki, son illər ölkədə ali təhsil alanların sayında artım var və bir qismi qane olmayaraq öz təshilini hətta xaricdə davam etdirir. Əslində bu ölkə üçün yaxşı göstərici olmalıdır ki, yüksək ali təhsilli tələbələr ölkəyə qayıdıb ölkənin quruculuğunda iştirak edərək düzgün idarəçiliyində öz töhfələrini əsirgəməsinlər. Ölkənin hazırki, durumunda buna çox ciddi ehtiyac var, xüsusilə də təhsil sahəsində. Təhsilimizin yüksək inkişafını istəyən əlaçı şagirdlərimizdən biri də jurnalımızın növbəti yazısının qəhrəmanı Cahangirov Ömərdir.

Cahangirov Ömər Abdulla oğlu 11 avqust 2010-cu ildə Bakı şəhərinin Sabunçu rayonunda anadan olub. 2016-cı ildə ilk dəfə Sabunçu rayonu Zabrat qəsəbəsindəki 71 saylı tam orta məktəbin 1-ci sinfinə yollanan Ömər hazırda həmin məktəbin 3-cü sinfində təhsilini davam etdirir.

Oxuduğu 3 il ərizində daim əla qiymətlər alan Ömər məktəbin əlaçılarındandır. Ən çox sevdiyi Azərbaycan dili və riyaziyyat fənni, onları tədris edən Əntiqə müəllim isə sevimli müəllimidir. Ömər hər zaman dərsə hazırlıqlı olur. Elə bir gün olmasın ki, o hansısa bir tapşırığı unutmuş olsun. Elə buna görə də daim əla qiymətlər alır və müəlliməsinin də sevimli şagirdidir. Boş vaxtlarında da belə dərsləri ilə məşğul olur.

Ömər həm də rəqsə gedir. O, "Azəri " rəqs qrupunun yeni üzvüdür. Hələ rəqs dərnəyinə yenicə qoşulan Ömər burada da fəal olması nəzərdən qaçmır. Çalışır ki, "Azəri" rəqs qrupunun televiziyalarda iştirakı zamanı o da qrupla birgə çıxış etsin. Xatırladaq ki, Ömər rəqsə qardaşı Nicatla birgə gedir.

Böyüyəndə polis olmaq istəyən Ömərin bu sənətə olan marağı xalqına ləyaqətlə xidmət eləmək və doğma vətəninin təhlükəsizliyini qorumaq, cinayətkarları araşdırıb üzə çıxartmaq kimi güclü istəyindən yaranıb. Atası Cahangirov Abdulla, 22 fevral 1982-ci ildə anadan olub. Özəl işlə məşğuldur.

Anası Məmmədova Ülviyyə 10 may 1986-cı ildə anadan olub. Evdar xanımdır.

Qardaşı Cahangirov Nicat, 28 iyul 2008-ci ildə anadan olub. Nicat da 71 saylı tam orta məktəbin 5-ci sinif şagirdidir.

Kollektivimiz adından Ömərə hər bir sahədə nəaliyyətlər və bol uğurlar arzu edirik. Həyatı istədiyi kimi parlaq, istədiyi kimi rəvan olsun.



# İMANZADƏ ŞÜKRİYYƏ





**"Elmə xilaskar kimi baxmaq robotdan mərhəmət diləmək kimi bir şeydir"**
**(Tur Xander)**

Təhsildə əsas məqsədimiz kamil şəxsiyyət, insan, vətəndaş yetişdirməkdir. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək yaşayır. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. İnsan keyfiyyətli fərd kimi ailədə formalaşır. Məktəb həyatı, ali təhsil ocaqları, cəmiyyət isə insanın formalaşmasında, öz mövqeyini göstərməsində ailə ilə bərabər mühüm rol oynayan faktorlardır. Təkcə təhsil deyil, elə tərbiyə də onun qədər önəmlidir.Yazının giriş hissəsindəki ibrətamiz ifadə də məhz bunu təsdiqləyir.Yəni elmə xilaskar kimi baxmaq robotdan mərhəmət diləmək kimi bir şeydir.İmanzadə Şükriyyə də bu yolda ilkin qədəmlərini basan və yenicə təhsil həyatına qədəm basan balalardandır.

İmanzadə Şükriyyə İlkin qızı 25 sentyabr 2012-ci ildə Şirvan şəhərində dünyaya gəlib. 2018-ci ildə Nəriman Nərimanov adına 2 nömrəli beynəlmiləl təbiət və texniki fənlər təmayüllü məktəb-liseyinə qədəm qoyub və hazırda elə həmin məktəbin 1a sinif şagirdidir.

Hələ təhsilə, elmə yenicə qədəm qoyan bu Fidan elə indidən özünü elmdə sübut etdirməyə çalışır. Belə ki, o dərslərində çox məsuliyyətli və bacarıqlıdır. Baxmayaraq ki, hələ 1-ci sinifdə oxuyur biliyi ilə həmyaşıdlarından seçilir. Onun ilk müəllimi elə doğmaca anasıdır. Anası ilə söhbətimiz zamanı bizə məlum oldu ki, Şükriyyə öz anasının dərs dediyi sinfin şagirdidi. Buna baxmayaraq, Şükriyyə heç vaxt arxayın düşmür, bilir ki, anası ona heç bir dərsdə güzəşt etməyəcək. Əksinə, o daha məhsuliyyətli olmalıdır ki, digər sinif yoldaşları ona baxıb daha da yaxşı oxumağa can atsınlar.

Bəlli oldu ki, Sükriyyə həm yaxşı oxuyur, həm milli rəqslər etməklə yanaşı gözəl rəsm çəkmə bacarığına malikdir. Bir sözlə, oxuduğu məktəbdə biliyi ilə özünə xüsusi hörmət qazanıb. Şükriyyə ən çox riyaziyyat fənnini sevir və M.Namazovun çalışma testlərini işləməyi xoşlayır, bu çalışmaları həll edərkən heç bir çətinlik çəkmir. Sükriyyədə həmçinin gözəl intonasiyayla seir demək qabiliyyəti var. Oxuduğu təhsil ocağının tədbirlərində şeir söyləməklə çıxışlar edib. 2018-2019-cu tədris ilində 1-ci sinifdə dərslərində fərqlədiyinə görə "Tərifnamə" ilə təltif olunub.

Gələcəkdə ali məktəbə daxil olub həkim olmaq istəyir.

Ailənin kiçiyidir. Atası İmanov İlkin Şükür oğlu, 63 saylı DSK-da mühasib vəzifəsində çalışır.

Anası İmanova Seyidxanım Seyidhüseyn qızı N.Nərimanov adına 2 nömrəli beynəlmiləl və texniki fənlər məktəb-liseyinin ibtidai sinif müəllimidir.

Qardaşı İmanzadə Səbuhi 3-cü sinifdə oxuyur.

Biz də jurnalımızın kollektivi adından əlaçı Şükriyyə balaya dərslərində uğurlar diləyirik. Hələ ki, məktəb həyatının ilk ilini yaşayan Şükriyyə balamıza hər zaman birincilərdən olmağı arzulayırıq.

# ƏSƏDOVA XƏDİCƏ








Son dövrlərdə müasirlik, müasir insan olmaq sözlərindən tez-tez istifadə edilir. Əslində müasirlik nə deməkdir? Müasir insan necə olmalıdır, hansı xüsusiyyətlərə malik olmalıdır? Müasir olmaq təkcə nə yeni dəbli geyimlə, nə də çox ekzotik yeməklə ölçülə bilməz. Müasir gənc öz müasirliyini ya biliyi, ya da hansısa bir bacarığı ilə nümayiş etdirsə, daha təqdirə uyğun olar. Hazırda ölkəmizdə minlərlə müasir düşüncəyə malik olan gənc və yeniyetmələr var ki, onlar bunu elmi bilikləri və bacarıqları ilə sübut edirlər. Haqqında söhbət açacağımız müsahibimiz də müasirliyi elmdə, təhsildə görür.Özü də çox aktiv və uğurları ilə seçilən bir şagirddir. Söhbət Əsədova Xədicədən gedir, onu tanıtmaq və uğurlarına davamlı motivasiya vermək jurnalın əsas qayələrindən biridir.

Əsədova Xədicə Natiq qızı 7 fevral 2005-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2011-ci ildə Bakının Biləcəri qəsəbəsində yerləşən 297 nömrəli tam orta məktəbə yollanıb. Hazırda həmin məktəbin 8r sinfində təhsilini davam etdirir. Xədicə məktəbin rus bölməsində oxuyur. Məktəbin fəallarından olan Xədicə oxuduğu illər ərizində daim yüksək təhsil nəticələri əldə edib. Anasının dediyinə görə, ibtidai sinifdə yaxşı oxuyan Xədicə 5-ci sinifdən sonra daha da fəallaşıb. Gündəlik dərslərində aktivliyi və summativ qiymətlərinə əsasən o əlaçı hesab olunub. Dərslərini böyük həvəslə oxuyan bu qız ona dərs deyən bütün müəllimlərini sevir və onların dəyərini bilir.

Xədicə həmçinin Fikrət Əmirov adına 6 saylı Uşaq İncəsənət məktəbinin rəssamlıq şöbəsində 4-cü sinifdə təhsil alır. İstedadlı və bacarıqlı Xədicənin əl işləri görənlərini sözün yaxşı mənasında təəccübləndirir və belə əl qabiliyyətinə heyran qoyur. Bu hələ son deyil, elə oxuduğu orta məktəbdə uğur və nəaliyyətləri çox çeşidlidir.

2016-2017-ci illərdə məktəbin ictimai işlərində fəal iştirakına görə Fəxri Fərmanla, 2017-ci ildə 9 noyabr Bayraq Günü münasibəti ilə keçirilən rəsm müsabiqəsində fəal iştirakına görə Fəxri Fərmanla, 2017-2018-ci illərdə Binəqədi rayon Biləcəri bələdiyyəsi, ictimai-humanitar sektorun təşkilatçılığı ilə “Bələdiyyə vergiləri nədir? Bələdiyyə vergi və ödənişləri hara xərclənir?” adlı layihə çərçivəsində 284, 297, 299 saylı məktəblər arasında keçirilən rəsm müsabiqəsində iştirakına görə sertifikatla təltif olunub, həmçinin Narkomaniya qarşı, Bayraq Gününə , 28 May Respublika Gününə və 2018-ci ildə isə Heydər Əliyevin 95 illiyinə həsr olunmuş sərgilərdə fəal iştirak edib.

Onun bu uğurlarında ailəsi ilə yanaşı müəllimlərinin də rolu böyük olub. Incəsənət məktəbində rəsm müəllimi Niftiyeva Aydan və 297 saylı məktəbdə Xədicəyə təsviri incəsənət fənnini tədris edən Əsgərov Arzu müəllimə bu elmin incəliklərini ona öyrətdikləri üçün təşəkkür etdiyini bildirdi. Xədicə böyüyəndə pilot olmaq istəyir. Xəyalları müxtəlif obrazlarda canlanır , arzuları səmalara qədər yüksəlir Xədicənin.

Ailədə 4 nəfərdirlər. Atası Əsədov Natiq Xanlar oğlu, 12 may 1971-ci ildə anadan olub. Dizaynerdir.

Anası Muradova Afət Cümşüd qızı, 7 may 1976-cı ildə anadan olub. Bacısı Əsədova Aişə Natiq qızı 7 may 2008-ci ildə anadan olub, hazırda 297 saylı məktəbin 5-ci sinifində oxuyur.

Kollektivimiz adından Xədicə Əsədovaya uğurlar və bol-bol nəaliyyətlər diləyirik. Parlaq bir ömür sahibi olasan.



# İSGƏNDƏRLİ TUNAR





**”Təbiət özü ahəng və gözəllik prinsipləri ilə qurulubsa, onu öyrənən elm də bu prinsiplərə sadiq qalmalıdır”**

**(Əbu Turxan)**

“Elm ağlın çırağıdır” , “elm çalışmaqla ələ gələr” , “elm sahibinə böyük zinətdir” - bu atalar sözləri əbəs yerə deyilməyib. Hələ qədim zamanlardan insanlar elmə, biliyə, ağıla, kamala böyük önəm veriblər. Elm hər dövrdə vacib olub. Belə ki, tarixə nəzər saldıqda orada savadlı, kamil insanlara necə böyük hörmətin olduğunu görə bilərik. Elm ağılı kamilləşdirir və insanı daha müdrik hala gətirir. Müdrik insan isə hər zaman təmkinli olub, doğru qərarlar verir. Elm sahibi olmaq qədim də çox çətin idi. İnsanlar min bir əziyyətlə oxuyur, mədrəsələrdə təhsil alırdı. Bu gün dünyəvi təhsil, əsl elm bizə bu qədər yaxın ikən ondan yararlanmamaq heç doğru olmaz. Bu günümüzün çalışqan, məsuliyyətli şagirləri gələcəyin savadlı kadrlarını, mədəni cəmiyyətini formalaşdıracaqdır.

Təhsil alıb, elmə yiyələnməyin necə ülvi bir hiss olduğunu başa düşənlərdən biri də İsgəndərli Tunardır.

İsgəndərli Tunar Vüsal oğlu 2009-cu il oktyabr 22-də Bakı şəhərində anadan olmuşdur. 2015-ci ildə Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbə başlayan Tunar hazırda həmin məktəbin 4a sinfində oxuyur. Dərslərini yaxşı oxuyan Tunarın ən sevdiyi fənlər ingilis dili və riyaziyyatdır. Aynur müəllim və Lalə müəllim isə onun ən sevimli müəllimləridir. Oxuduğu H.Z.Tağıyev adına 6 saylı məktəbdən İsgəndərli Tunara 2017-2018-ci tədris ilinin I yarımilini əla qiymətlərlə başa vurduğu üçün Fəxri fərman da verilmişdir. O eyni zamanda vətənpərvər ruhda böyüyən uşaqdır. Yəqin elə buna görədir ki, o gələcəkdə polis olmağı arzulayır. Tunar dərslərdən geriyə qalan boş zamanlarını kitab oxumaqla dəyərləndirir.

Tunarın atası İsgəndərov Vüsal Faiq oğlu marketdə işləyir. Anası İsgəndərova Xalidə zaman qızı evdar qadındır. Tunarın qardaşı İsgəndərli Faiq Vüsal oğlu isə hazırlığa gedir. Tunar ailəsinin həm ilki, həm də fəxridir. O, öz çalışqanlığı, fəallığı, tərbiyəsi ilə kiçik qardaşı Faiqə müsbət örnək olur.

Biz Tunara təhsilində və gələcək həyatında uğurlar arzu edir, nəalliyyətlərinin davamının gəlməsini diləyirik. Ailəsinin qürur mənbəyi olan Tunar bizim də fəxrimizdir. Biz inanırıq ki, o dürüst, cəsarətli bir polis olaraq cəmiyyətimizə, xalqmıza ləyaqətlə xidmət edəcəkdir.

# ƏSGƏROV RÖVŞƏN



**Daş-qaş əvəzinə üzünə bilik yarsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.**

**(Əbül Fərəc)**

Təhsil insanın həyatında ən vacib faktorlardan biridir. İnsanı geyiminə görə qəbul edib, ağlına görə yola salarlar ifadəsi də əbəs yerə deyilməyib. Çünki bər-bəzək, daş-qaş insanın şəxsi və mənəvi keyfiyyətlərindən üstün ola bilməz. Daş-qaş elm, bilik qazandırmaz, amma elm insana maddi və mənəvi bütün keyfiyyətləri, qazancları qazandıra bilər. Çünki günümüzdə təhsilsiz olmaq, öz hüquqlarını bilməmək, cəmiyyətdə özünə yer tapa bilməmək deməkdir. Təhsil insana sadəcə dünyəvi biliklər verməklə qalmır, o həm də insana dünyagörüş qazandırır. Hər bir insan təhsil almaq, maariflənmək hüququna malikdir. Ta qədimlərdən elm, bilik hər şeydən üstün olmuşdur. Əbəs yerə "elmsiz adam meyvəsiz ağaca bənzər" deməyib atalarımız. İnsan təhsil alaraq nəinki özünə, hər kəsə faydalı ola bilər. Təhsilli insan vətəninə də böyük xidmətlər verə bilər. Bunun üçün insan çox çalışmalıdır ki, parlaq bir gələcəyi olsun. Burada başlıca rol məktəbdə alınan təhsil oynayır. Bəzi insanlar da hələ uşaq yaşlarından öz üzərlərində işləyir, çalışır və bir sıra böyük uğurlar əldə edirlər. Əsgərov Rövşən də məhz elə uğurlu və bacarıqlı şagirdlərdənir. Jurnalın da axtarışında olduğu əsas qəhrəmanlardan biri. Böyük məmnuniyyət və həvəslə onun haqqında yazını oxucuların ixtiyarına veririk.

Əsgərov Rövşən Ramin oğlu 2008-ci il fevralın 28-də Bakı şəhəri Səbail rayonunda anadan olub. 2015-ci ilin Səbail rayon tam orta məktəbinin 1-ci sinfinə gedən Rövşən hazırda həmin məktəbin 4d sinif şagirdidir. O yaxşı oxuyan və məsuliyyətli şagirddir. Rövşən 2018-ci ilin fevral ayında 51 saylı tam orta məktəbdə 3-cü siniflər arasında keçirilən "Bilik yarışması" - da 1-ci yerə layiq görülüb. Riyaziyyat və Azərbaycan dilindən fənn olimpiyadalarında birinci yerə çıxan Rövşən gələcəkdə iqtisadçı olmaq arzusundadır. O inanır ki, gələcəkdə özünü bu sahədə inkişaf etdirərək uğurlu biznesmen olacaq. Buna görə də heç təsadüfi deyil ki, Rövşən riyaziyyat fənnini çox sevir və həmin fənni tədris edən Nailə müəllimə onun sevimli müəllimlərindən biridir. O eyni zamanda ingilis dilini və həmin fənn müəllimi olan Məlahət müəlliməni də çox sevir. Həmçinin o özü də seçmə şagird kimi müəllimlərinin sevimlisidir. Dərslərini çox sevən Rövşən onları buraxmamaq şərtilə boş vaxtlarında idmanla da məşğul olur. Futbol onun ən sevimli hobbisi olduğundan tez-tez dostları ilə futbol oynayır. Böyük olmayan ailəsi 4 nəfərdən ibarətdir. Ancaq ən böyük dayağı, arxası valideynləridir ki, onlar da Rövşənin gələcəyi üçün əlindən gələn köməkliyi əsirgəmir, lazımı yardım və məsləhətləri ilə onu həyata hazırlayırlar. Ən böyük arzuları onun gələcəyini çox uğurlu biri kimi görmək istəmələridir.

Rövşənin atası Əsgərov Ramin Rövşən oğlu 1981-ci il sentyabrın 2-də anadan olub. O sürücü işləyir. Rövşənin 1987-ci il təvəllüdlü anası Əsgərova Aygün isə evdar qadındır. Rövşənin özündən 4 yaş böyük 8-ci sinifdə oxuyan bacısı var. O da eyni məktəbin şagirdidir. Bir-birinə bağlı olan bacı-qardaş ailələrinin sevimli və uğurlu övladlarıdır. Sonda Rövşənə təhsilində və gələcək həyatında uğurlar arzu edir, nəaliyyətlərinin davamlı olmasını diləyirik. Çünki kiçik uğurlar üzərində əməksevərlik, zəhmət və təlləb artarsa nəticə axarı böyük uğurlara doğru yol alar. Yolun böyük uğurlardan, ömrün yaşıl işıqdan kənar qalmasın diləyi ilə redaksiyamız adından Rövşən Əsgərova ən səmimi diləklərimizi çatdırırıq.



# ABDULLAYEVA XƏDİCƏ





"Elmdə heç bir ideya ehkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir"

Dünyada minlərcə peşə və sənət mövcuddur. Bu müxtəliflikdə olmaq böyük sınaq və imtahandır. Hansını seçməli, həqiqətən də çox məsuliyyətli bir məsələdir. Hətta səbəbsiz yerə deyilməyib bu ifadə ki, insan iki seçim məsələsində ciddi olmalıdır. Birincisi həyat yoldaşı, ikincisi peşə, sənət seçimində. Əks halda səhv seçim hər iki həyati vacib məsələdə uçuruma doğru yol alıb, insan yanıltısına səbəb olar. Çünki ömür bir dəfə verildiyindən, həyat qısa olduğundan edilən səhvi düzəltmək vaxt və zaman alır. İtirilən cavan illəri də heç nə geri qaytarmır. Üstəgəl bir ömür insan özünü axtarsa belə konkret mövqeyini möhkəmlədə bilmir. İndiki gənc və yeniyetmələrə bu fakt hələ ailədə, məktəblərdə aşınmalı, təbliğ olunmalıdır. Elə Xədicə Abdullayeva da yaşı kiçik olsa belə bunu dərk edə biləcək təfəkkür sahibidir. Bu balaca və çalışqan şagirdi tanıtmaq üçün jurnalımızın bu yazısını ona həsr edirik.

Abdullayeva Xədicə Elnur qızı 30 may 2010-cu Sumqayıt şəhərində anadan olub. 2016-cı ildə Qubadlı rayon Hafiz Quliyev adına Texniki Fənlər Təmayüllü Çaytumas məktəb-liseyinə yollanıb. Hazırda həmin təhsil ocağında 3-cü sinifdə təhsil alan Xədicə çox fəal şagirtdir. Xədicə ilk dəfə məktəbə getdiyi gündən oxumağa çox həvəs göstərib. Oxuduğu 3 il ərzində daim əla qiymətlər almış, bir sıra uğurlara imza atmışdır. Belə ki, 14 iyun 2017-ci ildə məktəbin ictimai işlərində fəal iştirakına görə Fəxri Fərmanla və 2017-2018-ci il tədris ilində isə nümunəvi davranış və əla qiymətlə bitirdiyinə görə yenə də Fəxri Fərmanla təltif olunmuşdur. Belə əlaçı, qabaqcıl şagird olduğu üçün Xədicə Həqiqət Namazovaya borclu olduğunu bildirdi. Həqiqət müəllim Xədicənin həm ilk müəllimidir, eyni zamanda sinif rəhbəridir. Xədicə müəlliməsini çox sevən şagirdir.

Böyüyəndə həkim olmaq istəyir. Bunun üçün oxuduğu illər ərzində çalışacaq ki, bütün dərslərində və tədbirlərdə yüksək səviyyədə çıxışlar nümayiş etdirsin. Çünki arzusunda olduğu həkimlik peşəsi çox məsuliyyətli və şərəfli bir peşədir. Bu şərəfli peşəyə sahib olmaq üçün isə aldığı təhsildə mükəmməl olmalıdır. Ona görə ki, gələcəkdə sağlamlığa ehtiyacı olan insanlar taleyini ona həvalə edəcəklər.

Xədicə rəqs etməyi də gözəl bacarır. Valideynləri Xədicənin bu istedadını hiss edib onu rəqs dərnəyinə yazdırıblar. Mütamadi olaraq getməsə də, gözəl rəqs edir. Məktəbin bir neçə tədbirində rəqqas kimi çıxış edib.

Ailənin ilk övladı Xədicə bala valideynlərinin sevimlisidir. Valideynləri onunla fəxr edirlər.

Ailəsinin 4 nəfər üzvü var.

Atası Abdullayev Elnur, Sumqayıt Texnologiya Parkında Mühafizəçi vəzifəsində çalışır. Anası Abdullayeva Günel evdar xanımdır. Rza adlı bir qardaşı var. Rza hələ bağça yaşlıdır.

Sonda jurnalımız adından istedadlı Xədicə balaya dərslərində və həyatda müvəffəqiyyətlər diləyirik. Uğurların bol olsun Xədicə!

# AYSUN DADAŞOVA





**”Daş-qaş əvəzinə üzünə bilik yarsan daha çox tanınarsan: ən qiymətli da salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz”**

**(Əbül Fərəc)**

Uğur qazanmaq fikri elə körpə yaşlardan başlamalıdır. Zaman qum dənələri kimi barmaqlarımızın arasında süzülüb getməkdədir. Çalışmalısan ki, sənə verilən ömürü hədər yerə zamanın axınında boş-boşuna xərcləməyəsən. Həyatda özünə elə mövqe tutmalısan ki, gələcəkdə sənin də cəmiyyətə bir faydan olsun. Elə bir şəxsiyyət kimi formalaşmalısan ki, yaşadığın ölkəni layiqincə təmsil edəsən. Elə savadlı şagirdlərdən olan Dadaşova Aysun da bu arzuda, bu istəkdədir.

Dadaşova Aysun Elçin qızı 26 aprel 2005-ci ildə Bakı şəhərində anadan olub. 2010-cu ildə məktəbə hazırlığa gedən Aysun, 2011-ci ildən 1-ci sinfə yollanıb. Artıq 8-ci sinifdə oxuyan Aysun Binəqədi rayonundakı 99 nömrəli tam orta məktəbin şagirdidir. Bütün müəllimlərini və tədris olunan fənləri sevən Aysun əlaçıdır. İbtidai sinif müəllimi Mirvari Babayeva olub. Mirvari müəllimə Aysunun belə yaxşı oxumasında böyük rolu olub. Belə ki, Aysun ibtidai sinfi əla qiymətlərlə başa vurub, yuxarı siniflərdə də bu ənənəyə sadiq qalıb. Oxuduğu illərdə Aysunun da bir çox nəaliyyətləri olub. O, 2016-cı tədris ilini əla qiymətlərlə bitirdiyi üçün “Tərifnamə”, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə “Gənclər ətraf mühiti qoruyur” layihəsində fəal iştirak etdiyi üçün “Seritifkat”la təltif olunmuşdur. Aysun məktəbdə keçirilən bütün tədbirlərdə də bir şagird kimi çox fəal çıxışlar edir. Məktəbdə keçirilən əlamətdar günlərə aid - “20 Yanvar”, “Xocalı”, “Bilik Günü ,”“Yeni il, ”“Novruz Bayramı”, “Son zəng” və s. tədbirlərdə bədii nitq qabliyyəti yüksək səviyyədə olduğu üçün şeirlər ifa edir.

Belə çalışqan, əlaçı oxuyan Aysunun məqsədləri çoxdur. Amma ən əsası gələcəkdə tərcüməçi olmaqdır. O İngilis dilini sevir. Ona bu dili sevdirən elə hazırda ona İngilis dilini tədris edən Nərminə müəllim olub. O, arzu edir ki, əla oxuyub ali məktəbə qəbul olunsun.

Aysun sadalananlarla yanaşı yaxşı rəsm çəkməyi və rəqs etməyi də bacarır. O, heç bir rəsm təhsili almasa da, çəkdiyi rəsmləri göz oxşayır. Qısa bir müddət ərizində isə rəqs dərnəyinə getmiş, amma dərslərinə mane olduğu üçün fəaliyyətini dayandırmışdır.

Aysun asudə zamanlarında kitablar oxuyur, ingilis dili ilə məşğul olur və rəsm çəkir. Valideynləri evin yeganə qızı ilə fəxr edirlər. Aysun onun zəhmətini çəkən valideynlərinə və müəllimələrinə bizim jurnalın vasitəsi ilə təşəkkürünü bildirməyi də unutmadı.

Aysunun ailəsi 4 nəfərdən ibarətdir. Atası Dadaşov Elçin Ramiz oğlu, Respublika xəstəxanasının Dializə şöbəsində texniki işçi kimi fəaliyyət göstərir. Anası Dadaşova Nihal Abuş qızı özəl şirkətlərin birində çalışır.

Qardaşı Dadaşov Yalçın isə İdman Akademiyasında təhsil alır. Xatırladaq ki, qardaşı qaydasız döyüş üzrə dünya çempionudur.

Kollektivimiz adından gələcəyin tərcüməçisi olmaq istəyən Aysuna can sağlığı arzulayırıq. Ümidvarıq ki, o gələcəkdə nəinki ingilis dili, həmçinin bir çox beynəlmiləl dilləri öyrənib “poliqlot”çu olacaq. Çünki bu artıq zəmanənin tələbidir. Uğurlar sənə Aysun!



# BALAKİŞİYEV ORXAN





Təbiət özü ahəng və gözəllik prinsipləri ilə qurulubsa, onu öyrənən elm də bu prinsiplərə sadiq qalmaqdır. Özümüzü dərk etdiyimiz illərdən başlayaraq həyatımızın böyük bir qismini məktəb həyatı ilə bağlayırıq. Çünki gələcəyimizə gedən ünvana yol məhz elə məktəbdən keçir. Burada istiqaməti axtarıb tapırıq. Bəzən bu sahədə insan yarı yolda qalsa da, əksər hallarda bu ali zirvələrə qədər gedib çatır. Sorağında olduğumuz bilikli, bacarıqlı şagirdlərin siyahısına Balakişiyev Orxan da yazılıb ki, bu yazı da onun haqqındadır.

Balakişiyev Orxan Zəkulla oğlu 10 may 2006-cı ildə Şirvan şəhərində anadan olub. Orxan 2012-ci ildə Sabirabad rayonunun Əli Qurbanov adını daşıyan Qalaqayın kənd tam orta məktəbə yollanıb. İbtidai sinifi burada təhsil alan Orxan oxuduğu illərdə bir neçə uğur qazanmışdır. Belə ki, o, 2012-2013-cü tədris ilində uğurlarına və nümunəvi davranışına görə 2 dəfə Fəxri Fərmanla və 1 Diplomla, təltif olunub. 5- ci sinfi də Qalaqaqayın kənd orta məktəbində oxuyan Orxan 6-cı sinifdən etibarən Nəriman Nərimanov adına 2 №-li Beynəlmiləl Təbiət və Texniki fənlər təmayüllü məktəb-liseyində təhsilini davam etdiririb. Hazırda 7-ci sinifdə oxuyur. Bu təhsil ocağında da fəal şagird kimi özünü təsdiq etmişdir. 2017-2018-ci il tədris illərində təlim-tərbiyyəsi və bilik-bacarığı ilə fərqləndiyinə görə Fəxri Fərmanla və Diploma təltif olunmuşdur. Ən çox riyazi elmlərə marağı var. Riyaziyyat fənninə xüsusi maraq göstərdiyi üçün həm sinif rəhbəri, həm də bu fənni ona tədris edən Mahir müəllimin sevimli şagirdlərindən biridir. Hər riyaziyyat dərsi saatı, Mahir müəllim auditoriyaya daxil olan zaman Orxanın sevinci ikiqat olur. Çünki dəyişməyən qanunları və bir qədər çətin olmasına baxmayaraq, riyaziyyatın bütün elmlərin şahı olduğunu artıq dərk edir. O bilir ki, riyaziyyat hər bir sahədə insan üçün lazımdır. Orxan isə turizm sahəsində çalışmaq istəyir. O səyahət edib, həm də öz ölkəmizdə bu sahədə lazımi fəaliyyət göstərmək istəyir.

Bir sıra əsərlər oxuyan Orxan ən çox Cəlil Məmmədquluzadənin əsərlərinə maraq göstərir. Həmçinin həvəskar musiqiçidir. O, gitarada ifa etməyi bacarır.

Orxan Azərbaycan Kyokuşinkaykan Karate Federasiyasının azyaşlı üzvlərindən biridir. 2017-ci ildə ixtisaslaşma imtahanında göstərdiyi dərəcəni dəyərləndirərək 9 kyu ilə və Fəxri Fərmanla təltif olunub.

Bu bacarıqlı və bir neçə potensiala malik olan oğlan hələ yüzlərlə uğurlara imza atmaq iqtidarındadır.

Valideynlərinin ilk övladı olan Orxan ailəsinə daim başucalığı bəxş edib və bu ənənəni davam etdirmək niyyətindədir. Valideyinləri hər dəfə Orxanla fəxr ediblər və qürur duyurlar.

Atası Balakişiyev Zəkulla, ticarətlə məşğuldur, anası Balakişiyeva Ülkər evdar xanımdır. Bacısı Balakişiyeva Fatimə 11 yaşındadır və şagirddir.

Belə tərbiyyəli, bacarıqlı, çalışqan şagird olan Orxana dərslərində və həyatda tutduğu istənilən sahədə uğurlar və nəaliyyətlər arzulayırıq!

# CAHANGİROVA XANIM





**"Alimlərin ruhu elm məbədində əbədi həyata qovuşur"**

**(Əbu Turxan)**

"Təhsil millətin gələcəyidir" - bu sözləri mərhum liderimiz Heydər Əliyev əbəs yerə deməmişdi. Doğrudan da təhsil xalqın, millətin gələcəyidir. Təhsilinə diqqət yetirib, çoxlu mütaliə edən insanlar həyatda daha çox şey əldə edir. Təhsili olmayan bir xalqın azadlığı da ola biməz. Azadlığı olmayan bir xalq isə başqa xalqların əsarəti altına düşər və zamanla yox olub gedər. Insan əvvəlcə öz tarixini bilməlidir ki, gələcəyini qura bilsin. Bunu bilməyin yolu isə təhsildən keçir. Insan təhsili kiçik yaşlarından alır, bilikləri çox erkən yaşlarda mənimsəməyə başlayır. Və beləcə hələ kiçik yaşlardan onda şəxsiyyət, sağlam düşüncə, vətənə və millətinə sevgi formalaşır.

Elmin, biliyin, təhsilin əhəmiyyətini başa düşənlərdən biri də Xanımdır.

Cahangirova Xanım Rövşən qızı 2005-ci il də Sabirabad rayonun Novruzlu kəndində anadan olmuşdur. O Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 8-ci sinif şagirdidir. 2010-cu ildə məktəbə başlayan Xanımın dərslərə böyük həvəsi var. Xanımın ən sevdiyi dərs Kimya dərsidir. Ən sevdiyi müəllimlər isə Ə. Sevinc və H. Seymurdur. Xanım gələcəkdə həkim olmaq Arzusundadır. Onun kimya fənninə olan marağı və sevgisi də bundan qaynaqlanır. Xanım məsuliyyətli və çalışqan şagirddir. Onun bu çalışqanlığı bir sıra uğurlara imza atmasına səbəb olmuşdur. Xanım H.Z.Tağıyev adına 6 saylı tam orta məktəbdə 2017-2018 tədris ilində Azərbaycan dili fənni üzrə keçirilən imtahanda yüksək nəticə göstərdiyinə görə fəxri fərmanla təltif olunub. O, boş vaxtlarını da olduqca səmərəli keçirir. Belə ki, o boş zamanlarını bədii kitab oxumaqla dəyərləndirir.

Xanımın atası Cahangirov Rövşən Gülağa oğlu fərdi təsərrüfatla məşğuldur. Anası Cahangirova İlahə Vahid qızı isə evdar qadındır. Xanımın bacısı Cahangirova Şamama Rövşən qızı da Sabirabad rayonu Novruzlu kəndində anadan olmuşdur.

Biz Xanımı qazandığı uğurlar səbəbilə təbrik edir və uğurlar arzulayırıq. İnanırıq ki, o xəyallarının ardınca gedərək onları məqsədə çevirəcək və bu günki çalışqanlığı, məsuliyyəti ilə məqsədinə çataraq savadlı bir həkim olaraq cəmiyyətinə öz şəfalı əlləri ilə yardım edəcək.



# GÜNEL XƏLİLOVA





**Qüvvət elmdədir , başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**

XII əsrin dahi şairi Nizami Gəncəvi biliyin, elmin insan həyatında tutduğu yerin məna və əhəmiyyəti haqqında belə demişdir.

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan amillərdən biridir. Belə ki, bilik insanın gücü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Artıq ölkəmizdə təhsili özünün həyatında əsas amil bilən şagirdlərin sayında artım var. Onların məqsədi ölkəmizi dünya arenasında savadlı və güclü iqtisadiyyata malik inkişaf etmiş bir ölkə kimi tanıtmaqdır. Təhsil xətti ilə ixtisaslaşan jurnalının əsas məqsədi də məhz məktəblərdə öz bilik və bacarığı, fərqli istedadlı tərəfləri seçilən şagirdləri tanıtmaq və jurnalda işıqlandırmaqla üzə çıxartmaqdır. Onlardan biri də Xəlilova Güneldir.

Xəlilova Günel Bəhruz qızı 20 yanvar 2005-ci ildə Bakı şəhərində anadan olub. İbtidai sinifə 200 nömrəli məktəb-lisey kompleksdə başlayan Günel 2-ci sinifdən etibarən təhsilini Füzuli rayon 1 saylı tam orta məktəbində davam etdirib. Günel artıq 8-ci sinifdə oxuyur. İlk dəfə ona qələm tutmağı Rahilə müəllimə öyrədib. Günel deyir ki, Rahilə müəllimdən ayrılmaq onun üçün bir qədər çətin olsa da 2-ci sinifdən etibarən onun ibtidai sinif müəllimsi Aygün ardınca isə Mətanət müəllim olub. Son iki müəllim də onun üçün əziz olub. Hazırda sinif rəhbəri Alızadə Firuzədir. Firuzə müəllimə riyaziyyat fənnini tədris edir və Günelin ən sevimli müəllimlərindən biridir. Riyaziyyat fənni bir qədər çətin fənn olsa da Firuzə müəllimə bu dərsi o qədər yaxşı başa salır ki, sinifdə nəinki Günel, bütün şagirdlər bu fənni sevir. Günelin daha bir sevimli müəllimsi var. Ona İngilis dilini tədris edən Şəhla müəllimdir.

Oxuduğu illər ərzində Günel daim yüksək səviyyədə səy göstərdiyi üçün müəllimləri tərəfindən xüsusi hörmətə layiq olub. O, 2013-2014-cü il, 2014-2015-ci il və 2017-2018-ci tədris illərini əla qiymətlərlə bitirdiyi üçün "Fəxri Fərman"larla təltif olunub. Bütün fənlərdən sınaq imtahanlarında məktəb üzrə 3-cü, sinif üzrə isə 1-ci yerə çıxıb. Riyaziyyat fənnindən keçirilən olimpiada da iştirak edərək öz bilik gücünü yer tutmasa da sınayıb. Gələcəkdə həkim olmaq arzusundan möhkəm yapışan Günel bu arzunun dərin oxumaq yolundan keçdiyini də yaxşı bilir. Elə buna görə də Günel daim yüksək səviyyədə oxumağa çalışır. Günel ata valideynləri, yəni nənəsi və babası ilə birgə yaşayır. Deyir ki, mənim oxumağımda ən yaxın köməkçim Bənövşə nənəm olub. O, mənə ilk dəfə oxumağa, yazmağa kömək edib. Ümumiyyətlə, babası Qərib kişi, nənəsi Bənövşə xanım Günelə hərtərəfli dəstək olub, onun üçün əllərindən gələni əsirgəmirlər. Günel ilə müsahibəm zamanı onun necə ağıllı, mehriban, bilikli bir qız olduğunun bir daha şahidi oldum. O özünü sevdirməyi, duyğularını səmimi şəkildə çatdırmağı bacaran şagirddir.

Asudə vaxtlarında müxtəlif kitablar oxuyur və gözəl rəsmlər çəkir.

Atası Xəlilov Bəhruz Qərib oğlu qəssab işləyir. Anası Məmmədova Samirə Süleyman qızı satıcı işləyir.

Bacısı Xəlilova Fatimə, 6-cı sinifdə oxuyur.

Biz də jurnal heyyətinin adından belə ağıllı, tərbiyəli, bacarıqlı, əlaçı şagird olan Günelə dərslərinə daim yüksək səviyyədə davam etməsini və gələcək həyatında böyük uğurlar diləyirik!

# HƏCƏR ZEYNALOVA





**"Əgər alim Bilmirəm kəliməsi barədə qafil olarsa özünü həlak etmiş olar"**
**(İmam Məlik)**

Peşə seçimi insanın həyatında verilən ən önəmli qərarlardan biridir. Əslində bu dövr uşaq yaşlarında özünu büruzə verməyə başlayır. Məncə elə bir uşaq yoxdur ki, ona "gələcəkdə nə olacaqsan" sualı verilməsin. Hansı peşəni, ixtisası seçmək isə ona uyğun istedada sahib olmağın, necə oxumağınla, məqsədində israrlı olmağı ilə birbaşa bağlıdır. Əgər gələcəkdə ali dərəcəli bir mütəxəssis olmaq istəyirsənsə, əlbəttə ki, ibtidai və orta təhsili mükəmməl oxumalısan ki, ali məktəbə daxil olmaq asan olsun. Hər bir sahədə elmin böyük rolu var. Məktəbli ancaq istedadlı və bacarıqlı şagirdlər haqqında jurnallarda yazıların verilməsi onların elə öz istedad və savadlarına sahib çıxması üçün bir tramplindir. Böyüyəndə həkim olmaq istəyən müsahibimiz Həcər Zeynalova da təhsilin əhəmiyyətini tez anlayanlardandır. Həcər elə jurnalın sorağında olan şagirdlərdən biridir.

Zeynalova Həcər Elbrus qızı 9 may 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Binəqədi rayonunda yerləşən E.Əliyev adına 297 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. Hazırda elə o məktəbin 4-cü sinif şagirdidir. Məlum oldu ki, Həcər də ən yaxşı oxuyan şagirtdir. Həcərin ilk müəllimesi Dünya Abdullayevadır. Həcərin ilk müəllimi onun üçün çox əzizdir. Çünki Həcərin belə çalışqan olmasında Dünya müəllimənin də əməyi az olmayıb. Həcər bütün fənləri sevir. Həcərə ən əziz olan bir müəllimə də var. Həcərin sevimli müəllimlərindən digəri də Gülüstan Cəfərova adlı İngilis dili müəllimidir. Oxuduğu 4 il ərzində Həcər də bir neçə dəfə uğur qazanıb. O, 3-cü sinifdə, yəni 14 iyun 2018-ci tədris ilində yüksək nəticələr göstərdiyinə, öz davranışı, zəkası, mədəniyyəti və tərbiyəsi ilə digər şagirdlərdən fərqlənərək təhsildə uğurlar əldə etdiyinə görə "Fəxri Fərmanla", 16 dekabr 2018-ci ildə keçirilən "Həmrəylik" yarışmasında 700 bal toplayaraq 4 yer arasında 2-ci yeri tutduğu üçün "Diplomla" təltif olunub.

Həcər gələcəkdə həkim olmaq niyyətindədir. Bunun üçün Həcər daim dərslərinə yüksək səviyyədə hazır olmağa çalışır. Həkim olmaq üçün çox mütaliə etmək və öz üzərində çalışmaq lazımdır. O, bilir ki, həkim olmaq bir o qədər də asan iş deyil. Buna görə də məqsədinə çatmaq üçün bacardığı qədər dərslərinə daha çox vaxt ayırmağa çalışır. O, asudə zamanlarında rəqs edir, özündən yaşca kiçik qardaşına dərslərində yardım edir.

Qeyd edim ki, Həcər rəqslə həvəskar məşğul olur. O, çox gözəl rəqs etməyi bilir. Valideyinləri ilk övladları olan Həcəri çox istəyirlər və onunla qürur duyurlar.

Atası Zeynalov Elbrus Alxan oğlu Hərbi zavodda mühafizəçi işləyir. Anası Zeynalova Afaq Elmixan qızı evdar xanımdır. Balaca qardaşı Zeynalov Yaqub 2-ci sinifdə oxuyur.

Həcərə dərslərində yeni-yeni nəaliyyətlər, uğurlar arzulayırıq. Uğurların bol olsun gələcəyin həkimi!



# MURADLI CAVİD



**Alim bank xəzinadarına oxşayır: onun əlində böyük xəzinələrin açarı var, amma bu xəzinələr onun deyil. (L.Berne)**

Çox zaman insan ixtisas seçməkdə çətinlik çəkir. "Mən kim, hansı peşə sahibi olum, gələcəkdə necə bir şəxsiyyət olum?" kimi suallar insanı çox düşünməyə vadar edir. Bəzən isə elə doğulduğun gündən kim ola biləcəyin qismən də olsa bəlli olur. Təbii ki, fitri istedad və qabiliyyət sayəsində. Ancaq bu istedad və qabiliyyət yüksək təhsillə tamamlanarsa onda ortaya cəmiyyətə yararlı, öz mövqeyi və dəsti-xətti olan kamil bir şəxsiyyət çıxar. Muradlı Cavid də böyüyəndə kim olacağına indidən qərar verən istedadlı və savadlı şagirdlərdəndir.

Muradlı Cavid Yalçın oğlu 6 mart 2007-ci ildə Bakı şəhərində dünyaya gəlib. Hazırda 6-cı sinifdə oxuyan Cavid 2012-ci ildə ilk dəfə Füzuli rayon 1 saylı tam orta məktəbində ibtidai sinif hazırlığına qəbul olunub və 2013-cü ildə 1-ci sinfə elə həmin məktəbdən davam edib. Hələ hazırlıq ilindən Cavid dərslərini yaxşı oxumağa başlayıb və ibtidai sinfi əla qiymətlərlə bitirib. Cavid deyir ki, onun belə yaxşı oxumağında Nigar müəllimin əməyi çox olub. Çünki ilk müəllim elmin sirrlərini ona öyrətməkdə mahir olub. İlk müəllimini bütün şagirdlərin həyatında o bir "mayaka" bənzədir. Fərq qoymadan hamısına öz gözünü nurundan, öz bilgisinin payından verir. Elə Nigar müəllim də Cavidi çox sevir. Dərs dediyi müddət ərizində hər zaman Cavidlə əlaçı bir şagirdi kimi qürur duyub. Riyaziyyatı yaxşı mənimsədiyindən müəllimi onun gələcəyini elə bir riyaziyyatçı kimi görür. Nigar müəllimlə Cavidi bağlayan digər bir bağ onun oxuduğu illər ərzində digər müəllimlərinin sevgisini, hörmətini qazanmasıdır. Cavidin ingilis dili, həm də sinif rəhbəri Şəhla və riyaziyyat fənnini tədris edən Vüsalə müəllimi onun ən çox rəğbət bəslədiyi müəllimləridir. Cavid oxuduğu illər ərizində yüksək səy göstərərək "İlin şagirdi" adına da layiq görülüb.

Oxuduğu illər ərizində Cavidin uğurları da az olmayıb. Deməli, Cavid 25 yanvar 2015-ci ildə 2-ci siniflər arasında Unikal kurslarının təşkil etdiyi "Check-up 4" adlı sınaq imtahanında fərqləndiyi üçün sertifikatla, 2017-ci ildə Kaspi Təhsil Şirkətinin təşkil etdiyi 4-cü siniflər arasında 85 bal topladığına görə sertifikatla təltif olunub. O, Həmçinin Füzuli rayon Şəkərcik kənd uşaq musiqi məktəbinin 3-cü sinif şagirdidir. Musiqi məktəbində tar simli aləti ixtisası üzrə təhsil alır. Musiqi məktəbində də uğurlara imza atan Cavid 2017-2018-ci illərdə keçirilən yekun konsertində uğurlu çıxışına görə Fəxri Fərmanla təltif olunub.

Cavid həm də bir idmançıdır. O, idmanın kyokuşinkaikan növü ilə məşğul olur. Bu idman sahəsində qazandığı ən böyük uğur Höfsandakı Olimpiya Kompleksində keçirilən "Bakı Çempionatı" yarışmasında 3-cü yer tutaraq sertifikatla təltif olunmasıdır.

Cavid universal bir şagirddir. Onun bu qədər sadaladığımız bacarıqları ilə yanaşı gözəl şeir yazmaq və rəsm çəkmək bacarığına da malik olmasını anası Ülviyyə xanımdan öyrəndik. Özü üçün xüsusi dəftər tutaraq içindən gələn, ilham aldığı mövzulardan şerlər də yazır, öz daxili dünyasından süzülən obrazları, mənzərələri rəsmləşdirir. Valideynləri Cavidlə fəxr edirlər. 2 bacının 1 qardaşı ailə üzvləri tərəfindən çox sevilir, çox güvənilir.

Ailəsi 5 nəfərdən ibarətdir. Atası Muradov Yalçın 1975-ci ildə Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub. Radiomühəndisdir.

Anası Muradova Ülviyyə 1986-cı ildə Kürdəmir rayonunun Sığırlı kəndində anadan olub.

Bacıları Muradlı Nəzrin 13 yaşında, Muradlı Pərvin isə 8 yaşındadır.

Belə sevimli, savadlı, bacarıqlı, güclü şagirdimizlə fəxr edirik və ona yönəldiyi hər bir sahədə müvəffəqiyyətlər arzulayırıq. Bu qədər bacarıq və istedadlara rəğmən o gələcəyin ən peşəkar həkimlərindən biri olmağı qarşısına məqsəd qoyub. Yolu açıq, arzuları çin, məqsədi hasil olsun.

# MURADLI NƏZRİN



**"Elm təşkilatlanmış bilikdir.**
**(Herbert Spenser)**

Riyaziyyat insanın sonsuz mənalandırma qabliyyətinin bir məhsuludur. Həyatı, təbiəti və kainatı anlamaq üçün ən yaxşı yoldur. Amma bir az çətin olduğu üçün insanların bir qismi bu elmi sevmir. Halbuki riyaziyyat çox sirrli və əyləncəli yanlara da sahibdir.

Müsahibim də riyazi elmlərə yiyələnmək, riyaziyyatın heç vaxt dəyişməyən qanunlarını dərindən dərk etmək arzusundadır. Və demək olar ki, bu arzuya çatmaq üçün istiqamət də tapıb. Gələcəyin riyaziyyatçısını jurnalımızın bu yazısından tanıyaq.

Muradlı Nəzrin Yalçın qızı 6 noyabr 2005-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2011-ci il tədris ilində Füzuli rayon 1 saylı tam orta məktəbinə yollanan Nəzrin hazırda həmin məktəbin 8-ci sinif şagirdidir.

Nəzrin deyir ki, onun riyaziyyat fənninə marağı böyükdür. O böyüyəndə peşəkar riyaziyyatçı olmaq istəyir. Bu elmi ona tədris edən Füruzə müəllim Nəzrin üçün əsl müəllim obrazıdır. Füruzə müəllim onun sinif rəhbəridir. Əlaçı olan Nəzrin həm də sinif nümayəndəsidir. Bütün dərslərdə ruh yüksəkliyi göstərən Nəzrin hər bir tədris ilində fəallıq nümayiş etdirir. 31 may 2013-cü ildə II sinfi və 19 may 2015-ci tədris ilinində IV sinfi əla qiymətlərlə bitirdiyi üçün Fəxri Fərmanla təltif olunub. 2018-ci ildə isə coğrafiya və tarixdən 7-ci və 8-ci siniflər arasında keçirilən bilik yarışında qrup olaraq 1-ci yerə çıxıblar və sertifikatla təltif olunublar. Həmin sertifikat uğurlu şagirdlərinə görə məktəbə təhvil verilib.

Nəzrinin qarşısında bir məqsədi var. O da gələcəkdə Bakı Dövlət Universitetinə daxil olub, oranın tələbəsi adına layiq olmaqdır.

Nəzrin musiqi ilə də yaxından məşğul olur. O, Füzuli rayon Şəkərcik kənd 9 saylı Uşaq Musiqi Məktəbinin kamança simli aləti şöbəsinin 3-cü sinif şagirdidir. Nəzrin musiqi məktəbində də fəal şagirdlər sırasındadır. Burada da uğurlar əldə edərək müəllimlərinin nüfuzunu qazanmışdır. 2017-2018-ci tədris ilində keçirilən yekun konsertində uğurlu çıxışına görə Diplomla təltif olunub.

Nəzrin bir çox istedada malikdir desək, yanılmarıq. Çünki o, həm də gözəl rəsmlər çəkməyi bacarır. Bu bacarıq da Nəzrinin fitri istedadıdır. O çəkdiyi gözəl rəsmlərini bizə də təqdim etdi. Doğrusu, ilk dəfə rəsmlərə baxanda mənə elə gəldi ki, hansısa peşəkar rəssamın əsərlərinə baxıram.

Asudə zamanlarında riyazi hesablamalar aparır, rəsm çəkir və kamançada gözəl musiqilər ifa edir.

Nəzrin ailənin ilk övladıdır. Valideynləri Nəzrinlə çox fəxr edirlər.

Ailədə 5 nəfərdirlər.

Atası Muradov Yalçın Cavad oğlu. Radiomühəndisdir. Anası Muradova Ülviyyə Əlinazim qızı. Evdar xanımdır.

Qardaşı Muradlı Cavid və bacısı Muradlı Pərvin hər ikisi şagirddir.

Biz də redaksiyamızın bütün heyyəti adından Nəzrinə uğurlar diləyir, gələcək həyatının parlaq olmasını arzulayırıq. Əsərləri olmayan alim meyvə gətirməyən ağaca bənzəyir deyirlər. Sən isə əsərləri olan alim, barı olan ağaca bənzə.



# MƏMMƏDOV TURAL





**"İnsanlar təhsil üçün deyil, təhsil insanlar üçündür və o, konkret insanların ehtiyaclarına uyğunlaşdırılmalıdır"**

Yüksək keyfiyyətli təhsilin edə bilməyəcəyi heç nə yoxdur. Heç bir şey onun təsir mexanizminin xaricində qala bilməz. Pis əxlaqları yaxşıya çevirə bilər, ədalətsiz qanunları ləğv edər və yerinə ədalətli və faydalı qanunlar qoyar, insanları müdrikləşdirər və ən aşağı səviyyədən ən yüksək insanlıq mərtəbəsinə ucalda bilər. Təhsil almaq üçün insana birinci növbədə ağıl lazımdır. Bəzən alınan təhsil ağıl üzündən ya yarıda qalır, ya da cəmiyyətə bir faydası olmur.

Təhsilin təməli ailədən və ibtidai sinifdən başladığı üçün birbaşa yük valideynlərin və ilk müəllimin üzərinə düşür. Əlbəttə ki, burada təhsil almaq istəyən şagirdin bilavasitə marağı olmalıdır. Maraqsa məqsədlə vəhdət təşkil etməlidir. Bu yazıda isə sizi oxumağa, biliyə üstünlük verən, məqsədlə marağının toqquşduğu bacarıqlı bir şagirdlə Tural Məmmədovla tanış edirik.

Məmmədov Tural Oqtay oğlu 2009-cu ildə Bakı şəhəri Sabunçu rayonunda dünyaya göz açıb. Sabunçu rayonu Zabrat qəsəbəsində yerləşən 71 saylı tam orta məktəbin 4-cü sinfində oxuyan Tural ilk dəfə məktəbə 2015-ci ildə yollanıb. Elə ilk gündən dərslərində məsuliyyətli olan Tural bu ənənəni 4-cü sinfə kimi davam etdirərək əlaçı adını qoruyub saxlayıb. İlk müəllimi Narınc Tanrıverdiyevaya böyük minnətdarlıq hissini bildirən Tural onun belə yaxşı oxumasında müəlliminin əməyinin az olmadığını xüsusi ilə vurğuladı. Tural qeyd etdi ki, Narınc müəllimə şagirdlərə bir ana qayğısı göstərir və əlindən gələni edir ki, sinifdəki bütün şagirdlər yaxşı oxusun. Çünki bir müəllimin nəticəsi onun yetirdiyi şagirdlərinin aldığı təhsil səviyyəsi ilə ölçülür. Şagirdlərinin uğuru, həm də müəlliminin uğurudur.

Tural böyüyəndə hərbiçi olmaq istəyir. O, istəyir ki, "Sərhəd Qoşunlarında" xidmət etsin. Buna görə indidən idmanla da aktiv məşğul olur. Cüdo üzrə bir neçə dəfə yarışlara qatılan Tural 2- ci və 3-cü yerlərə çıxmağa nail olub. Amma bununla kifayətlənməyən Tural çalışır ki, yüksək nəticələr əldə etsin. O, evin kiçik övladıdır. Atasını bir neçə il öncə itirib. Ailənin yükü anasının üzərinə düşüb. Ailədə 3 uşaqdılar. Atası Məmmədov Oqtay, anası Məmmədova Nailə satıcı işləyir. Turalın özündən yaşca böyük iki bacısı var. Evin böyük qızı Şadi 17 yaşındadır və peşə liseyində təhsil alır, digər bacısı Nilufər isə 8-ci sinifdə oxuyur. Nilufər şeirlər yazır. Tural deyir ki, dərslərində çətinlik çəkən zaman bacıları ona kömək edir. Tural anasını və bacılarını çox istəyir. Düşünür ki, atasından sonra evin böyüyü sayıldığından böyüyüb anasına, bacılarına arxa, dayaq olmalıdır.

Kollektivimiz adından Turala dərslərində nəaliyyətlər arzu edirik. Ümidvarıq ki, dərslərinə yüksək səviyyədə hazırlaşıb, ali məktəbə daxil olmaqla ailəsini, müəllimlərini sevindirəcək. Gələcək həyatında sənə uğurlar diləyirik!

# MEHRİBAN BAĞIROVA



**”Elmi olub, ağlı olmayan adama elm əziyyət verər.**

**(Nuşirəvan Adil Xosrov)**

Bir millət təhsil ordusuna sahib olmadıqca, döyüş meydanlarında nə qədər parlaq zəfərlər əldə edirsə etsin, o zəfərlər zəfər hesab oluna bilməz. Bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır. Təhsil isə məktəbdən başlayır. Biz hər birimiz təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nəaliyyətlərimizə görə məktəbə, müəllimlərimizə borcluyuq. Təhsil almaq sadəcə diplom naminə ali təhsil almaq deyil, özünü bir şəxsiyyət, insan kimi yetişdirməyi bacarmaq deməkdir. ”Elm bir nur, cəhl isə zülmətdir” deyimi də bunu təsdiqləyir.

Müsahibimiz Sabirabad rayonu Qalaqayın kənd məktəbinin şagirdi Mehriban Gündüz qızı Bağırovadır. Jurnalın bu yazısında adıçəkilən şagirdin təhsil həyatına, bilik və bacarıqlarına işıq salacağıq.

Mehriban Gündüz qızı Bağırova 31 dekabr 2008-ci ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 2015-ci ilin tədris ilində məktəbə yollanan Mehriban elə həmin kəntdə yerləşən (1941-45-ci illərdə müharibə veteranı olan) Əli Qurbanovun adını daşıyan məktəbin 4-cü sinif şagirdidir.

Mehriban elə adı kimi mehriban, güləriz, hamı ilə səmimi münasibət quran bir qızdır. Dərslərinə məsuliyyətlə yanaşır. Sinif rəhbəri Sevda müəlliməni çox istəyir Mehriban bala. Boş zamanlarında uşaq ensklopediyasından maraqlı kitablar oxuyur. Özü böyüyəndə saç ustası olmaq istəsə də, atası onu müəllim görmək istəyir. Jurnalımızın stimulverici əhəmiyyətə malik olması Mehribanda da bir fikir ayrılığı yarada bilər. Bəlkə də, məqaləni oxuyandan sonra Mehriban atasının arzusunu həyata keçirməyə qərar verəcək. Axı niyə də olmasın?! Valideynlərinin onun üzərində zəhməti var. Bu ağıllı, kamallı qız onların əziyyətini dəyərləndirib, gələcəyi üçün daha da yaxşı və müansib olan bir peşəni oxumalı olacaq. Əslində peşə - sənət seçimi fərdin öz ixtiyarında olmalı, öz bacarıq və imkanlarına uyğun sahəyə yönəlməlidir ki, sonradan peşmançılıq olmasın. Amma atası bilir ki, Mehriban onun bu istəyini doğrulda bilər. Çünki qızında bu istedadı, bacarıq imkanlarını görür. Mehriban ailənin yeganə qız övladıdır. Qızlar isə həmişə ataya bağlı olurlar və ataları üçün də qız övladı bir başqa üstünlüyə malikdir.

4 nəfərdən ibarət olan ailənin başçısı Bağırov Gündüz şəxsi ticarətlə məşğuldu, anası isə Bağırova Könül evdar xanımdır.

Sonda jurnalımız adından Mehribana uğurlar diləyirik və inanırıq ki, biz gələcəkdə Mehribandan saç ustası kimi deyil, yaxşı müəllim kimi müsahibə ala bilərik. Atasının fəxri, anasının sevinci, müəllimlərinin uğurlu yetirməsi kimi tanınmasını arzulayırıq.



# Kəngərli Turan





**Elm yolunda günə dön, aya dön, ulduza dön!**

***Nizami Gəncəvi***

Təhsil və bilik bizim gələcəyimizdir. Cəhalət və savadsızlığın hakim olduğu bir cəmiyyət süquta məhkumdur. Çünki bir cəmiyyət inkişaf etmiş formasına ancaq elm və təhsillə çata bilər ki, burda da əsas rol oynayan faktor insana qoyulan maddi və mənəvi kapitaldır. Çünki təhsili yüksək keyfiyyətli və dövrün tələblərinə uyğun şəkildə tədris etməklə inkişafa nail olmaq olar. İşləyən insan beyinləri özündə informasiyaları daşımaqla bir nəsildən min nəsil sonrakılara daha uğurlu və sağlam genetik kod qoyub gedir ki, bu minvalla inkişaf edən cəmiyyət, ölkə uzun illər öz iqtisadi və soial təminatına görə liderlik etmək şansını qazanır. Yəni təhsil və bilik hesabına insan həyatda uğurla addımlaya, vətəninə, ailəsinə və cəmiyyətə yararlı biri ola bilər. Biliyi, bacarığı və nəaliyyətləri ilə fərqlənən şagirdlərdən biri də Kəngərli Turandır.

Kəngərli Turan Murad qızı 18 oktyabr 2010-cu ildə Bakı şəhərində dünyaya göz açıb. 2017-ci ildə Ağdam rayonu 32 saylı tam orta məktəbində 1-ci sinfə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Az yaşlı olmasına baxmayaraq Turan balamız savadlı və biliklidir. O, keçdiyi bütün fənlərdən yaxşı qiymət alır. Ən sevdiyi fənn ana dili, ən sevdiyi müəllim isə Günel müəllimdir. Turanın gözəl əl qabiliyyəti var və bunu inkişaf etdirmək istəyir. Boş vaxtlarında rəsm çəkməyi və capoera idman növü ilə məşğul olmağı çox sevir. Gələcəkdə rəssamlıq sahəsində peşəkar olmaq onun ən böyük arzusudur.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Kəngərli Murad musiqi müəllimidir. Anası Hüseynova Məsmə evdar xanımdır. Bacısı Kəngərli Türkayın 5 yaşı var.

Biz redaksiyamız adından Kəngərli Turana həyat yolunda uğurlar arzu edirik. Qoy öyrəndiyi elm, bilik hər zaman onun həyat yolunda yaşıl işıq tək uğurlara yol açsın. Yolu açıq, arzuları çin olsun.

# Zeynallı Yağmur





**"Əgər elm ümidlə olsaydı, dünyadakı bütün insanlar alim olardı"**

***Həzrəti Əli (ə.s)***

"Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür" deyib Platon. Elmi nəaliyyətlər nəticəsində bəşər həyatı gözəlləşməyə doğru irəliləyir. Belə nəaliyyətlər dövründə bilik və bacarıqlarını inkişaf etdirmək üçün təhsil almaq ən vacib amillərdən biridir. Bununla yanaşı təhsillə kifayətlənməməli, faydalı kitablar və məcmuələrin mütaliəsi ilə məşğul olmaq lazımdır. Çünki təktərəfli bilgi insanı müxtəlif baxış bucağına dair olan yanaşmasını və zəngin məlumatlı olmasını məhdudlaşdırır. Çünki elm köhnəlmədiyi kimi daim yenilənməsi, müəyyən araşdırma və axtarışların nəticəsi kimi yeni elmi faktlarla zənginləşdirilməsi prosesi gedir. Köhnəni bilməyən yeni faktlardan anlamaz, nə də yeniləri öyrənməyib dəyişilməz bilgi ilə öyünsən ancaq geridə qalıb özünü püxtələşdirə bilmərsən. Ümumilikdə isə insan övladı savadsızlıqdan uzaq durmalı və bütün insani bəlaların, xurafatın, cahilliyin baiskarı olan elmsizliyin-təhsilsizliyin olmasını dərk etməlidir. Hətta boş yerə deyilmir ki, savadsızlıqla mübarizə cihaddır. Odur ki, əsas baza təhsil sayılan orta məktəb təhsilini hər kəs oxuyub anlamalı və təhsil dərəcəsindən asılı olmayaraq insan bir ömür boyu kitabdan, oxumaqdan, öyrənməkdən uzaq düşməməlidir. Hər zaman bilik və bacarıqlarını artırmağa çalışan elm və bilik qazanmağa meyilli şagirdlərdən biri də Zeynallı Yağmurdur. O da bu yolun haqq yol olduğunu erkən yaşda dərk edib seçənlərdəndir.

Zeynallı Yağmur Çingiz qızı 11 sentyabr 2011-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, 2016-cı ildə Bakı şəhərində Ağdam rayonu 88 saylı tam orta məktəbində 1-ci sinifə qəbul olub. Hal-hazırda həmin məktəbin 2-ci sinifində oxuyur.Yağmur çalışqan və məsuliyyətli şagirdlərdən biri olduğu üçün müəllimlərinin və sinif yoldaşlarının sevgisini qazanmağı tez bacarıb. Baxmayaraq təhsil həyatı üçün uğuru böyük olmasa da yaşına görə əldə etdikləri sevindiricidir. Belə ki, Yağmur Ağdam rayonu 88 saylı tam orta məktəbində məktəbəhazırlıq qrupunda keçirilən mövzuları yaxşı mənimsədiyi və 2017-2018-ci tədris ilini müvəffəqiyyətlə başa vurduğu üçün Təhsil Nazirliyi tərəfindən "Uğur diplomu" və "Tərifnamə" təltif olunub. Ən sevdiyi fənn Azərbaycan dilidir. O, bütün müəllimlərinə hörməti və sayğısı olduğunu vurğulasa da , lakin onun üçün Vüsalə, Günel və Xatirə adlı müəllimlərinin xətri daha əzizdir. Xasiyyətcə şirin olan bu qızcığaz elə ağlı-biliyi, hazırcavablığı ilə yanaşı sevgisi, şirinliyi ilə də müəllimlərinin qəlbinə yol tapıb. Ailədə dərsləri və hazırlıqları ilə anası yaxından məşğul olur və onun çox bilgili olmasında əsas yardımçı şəxsdir.

Boş vaxtlarında isə mütaliə etməyi, şer əzbərləməyi və rəsm çəkməyi çox sevir. Bütün bunlarda da anası onu istiqamətləndirir və doğru düzgün yetişməsində bir valideyn kimi əlindən gələni əsirgəmir.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Zeynalov Çingiz Şakir oğlu hərbiçidir. Anası Zeynalova Damla Salatın Firdovsi qızı əczaçı kimi çalışıb, indi isə evdar xanımdır. Bacısı Zeynallı Damlanın 2 yaşı var.

Yağmurun ən böyük arzusu gələcəkdə həkim peşəsinə yiyələnməkdir. Çox savadlı bir həkim kimi yetişib xəstə, yardıma ehtiyacı olan insanlara kömək edib öz insanlıq vəzifəsini yerinə yetirməkdir. Biz də redaksiyamız adından Zeynallı Yağmurun arzularını həyata keçməsini və uğurlarının bol olmasını arzu edirik. Hansı sahədə, hansı peşədə olursa olsun əsas öz mövqeyi və ailəsinə, müəllimlərinə layiqli övlad olsun. Elm, təhsil yolunda Yağmura uğurlar!







Ağdam Rayon 88 Saylı
Köçkün Tam Orta Məktəb

Uğur Diplomu

Zeynallı Yağmur Çingiz qızı

Məktəbəhazırlıq qrupunda fənnlər üzrə keçirilən mövzuların mənimsənildiyi üçün təqdim olunur.

Direktor: Məmmədova Mələnət

Möhür



Azərbaycan Respublikası Təhsil Nazirliyi

TƏRİFNAMƏ

Zeynallı Yağmur Çingiz qızı

2017\2018-ci tədris ilini müvəffəqiyyətlə başa vurduğu üçün təltif olunur.

Məktəbin direktoru : M.Ə.Məmmədova

Möhür






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:

(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru

Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

# ÇAĞDAŞ TƏHSİL

Xüsusi buraxılış Mart 2019-cu il (14)












Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86